Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 130 (8153) ÇƏRŞƏNBƏ, 19 iyun 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Dünyaya nümunə olan Azərbaycan reallığı

**Azərbaycan xalqının milli-mənəvi dəyərləri dedikdə bizi bir-birimizə doğmalaşdıran, bütövləşdirən və mədəniyyətimizi zənginləşdirən amillər - dilimiz, dini inancımız, adət-ənənələrimiz, eyni zamanda tarixən bu torpaqlarda mövcud olmuş birgəyaşayış mühiti və tolerantlıq kimi xüsusiyyətlərimiz nəzərdə tutulur.**

Xalqımız yüzillər boyu məhz bu dəyərlərə söykənərək tarixin ağır sınaqlarından üzüağ çıxıb. Öz milli varlığını, dövlətçilik ənənələrini qoruyub saxlamağa müvəffəq olub. Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan müstəqil Azərbaycan dövləti də məhz əsrlər ərzində formalaşmış həmin dəyərlər üzərində bərqərardır. Mənəvi aləmimizi zənginləşdirən, milli vəhdətimizi təmin edən, mədəni irsimizi ucaldan dəyərlərimizi qoruyub saxlamaq hər bir dünya azərbaycanlısının müqəddəs borcudur. Bu dəyərləri yaşatmaq, təbliğ etmək, gələcək nəsillərə sevdirmək doğma vətənin dünəni, bugünü və gələcəyinə xidmət deməkdir.

### Milli-tarixi yaddaş

Xalqın malik olduğu mədəni irsə düzgün münasibətinin formalaşmasında, bütün bunlardan cəmiyyətin inkişafı üçün məqsədyönlü şəkildə istifadə edilməsində liderlər müstəsna rol oynayırlar. Bu qanunauyğunluq ulu öndər Heydər Əliyevin dövlətçilik irsində də aydın şəkildə əks olunur, fəaliyyətində xüsusi yer tuturdu. Hələ ötən əsrin 70-ci illərində Sovet Azərbaycanına rəhbərliyi dövründə ümummilli lider xalqımızın milli-mənəvi dəyərlərini varlığında yaşadaraq onlara münasibətilə özü cəmiyyət üçün bir nümunə yaratmışdı. Bacardığı hər məqamda sovet quruluşunun sərt ideoloji-siyasi maneələrini aradan qaldıraraq xalqımızın milli şüurunu oyatmış, özünüdərk, milli heysiyyət duyğularının gücləndirilməsi, milli yaddaşın bərpası məramı ilə sistemli tədbirlər həyata keçirmişdir. Azərbaycan mədəniyyətinin, incəsənətinin, adət-ənənələrinin yaşadılması, ana dilimizin qorunması və inkişafı, şəxsiyyətlərimizin təbliği yönündə Heydər Əliyevin həmin illərdə gördüyü işlərin hədəfi keçmişimizə, soykökə qayıdış, bu xalqın ucalığının bütün dünyada görünməsi demək idi.

Dövlət müstəqilliyimizin bərpasından sonra xalqımızın yüksək mənəvi dəyərlərini qoruyaraq bütövlükdə sağlam cəmiyyətin formalaşmasına təsir göstərmək, onun tarixi yaddaşını, milli-mənəvi dəyərlərini gələcək nəsillərə ötürmək vəzifəsini də o çətin məqamlarda yenə məhz Heydər Əliyev üzərinə götürmüş və bu missiyanı uğurla həyata keçirmişdi.

Ulu öndər Heydər Əliyev milli-tarixi yaddaşımızın bərpasını demokratik, hüquqi dövlət quruculuğu prosesi ilə həmahəng həyata keçirirdi. Azərbaycan mədəniyyəti, mənəvi dəyərlərimiz Heydər Əliyevin dövlətçilik irsində təkcə milli varlığımızın ifadəsi deyil, həm də dövlət quruculuğu prosesinin mühüm atributu rolunda çıxış edirdi. Xalqımızın tarixi keçmişinə, mənəvi irsinə dərindən bağlılığı, mənəvi-əxlaqi, dini dəyərlərimizin, adət-ənənələrimizin zənginliyinin, tərbiyəvi əhəmiyyətinin fərqində olması və bu misilsiz xəzinədən məqsədyönlü şəkildə istifadə etməyi bacarması Heydər Əliyevin böyüklüyü idi. Ulu öndər deyirdi: “Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi xalq ola bilməz. Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir”.

### Din və dövlət bir-birinin yanındadır

Bu münasibət müasir tarixi mərhələdə də həyata keçirilən dövlət siyasətinin aparıcı istiqamətini təşkil edir. Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin, mədəni irsimizin, adət-ənənələrimizin qloballaşmanın mənfi təsirlərindən qorunmasına, onların bütün dünyada təbliğinə mühüm prioritet kimi yanaşır. Məhz bu siyasət sayəsində ölkədə insanların etiqad azadlığı qorunur, bu azadlıqların təmin olunması üçün tam şərait yaradılır. Dini dəyərlərə, ibadət yerlərinə, din xadimlərinə xüsusi qayğı göstərilir. Dövlətlə din arasında qarşılıqlı anlaşma və əməkdaşlıq güclənib. Dünyəvi dövlət prinsiplərinə sadiq olan Azərbaycanda dövlət-din münasibətlərinin də özünəməxsus modeli formalaşıb.

Ardı 7-ci səh.

# “Gələcəyə doğru” adlı məzun gecəsinin iştirakçılarına

Əziz məzunlar!

Hər birinizi salamlayır və məzun olmağınız münasibətilə ürəkdən təbrik edirəm!

Orta məktəb illəri hər kəsin həyatının ən yaddaqalan dövrüdür. 11 il ərzində siz məktəbdə əlifbadan başlayaraq elmin sirlərinə yiyələnmisiniz. Nəhayət, bu gün uşaqlıq və qayğısız məktəb illəri ilə vidalaşırsınız.

Məktəbdən məzun olmaq hər bir insanda təzadlı hisslər doğurur. Bu gün siz uzun illər təhsil aldığınız məktəbdən, müəllimlərinizdən və sinif yoldaşlarınızdan ayrılırsınız. Eyni zamanda, bu gündən etibarən müstəqil həyata, öz taleyinizi müəyyən edəcək yeni və vacib bir mərhələyə qədəm qoyursunuz.

Müasir dünyada elm sürətlə inkişaf edir, hər gün mühüm bir yeniliyin şahidi oluruq. Bütün bunlar siz gənclər üçün böyük imkanlar yaradır. Müasir elmin yeniliklərini dərindən mənimsəmək günümüzün tələbidir. Fəal və cəsarətli olmaq, əldə etdiyiniz bilikləri daha da inkişaf etdirmək, müxtəlif sahələrdə yeni ideyaları ortaya qoyaraq onları reallaşdırmaq sizin əlinizdədir.

Seçəcəyiniz peşədən asılı olmayaraq, hər biriniz dövlətimizin müstəqilliyini, xalqımıza məxsus nəcib dəyərləri qorumalı, Azərbaycanın daha da inkişaf etməsinə və güclənməsinə çalışmalısınız. Əminəm ki, bu gündən etibarən verdiyiniz bütün qərarların, atdığınız hər bir addımın əsasını xoş niyyət, xeyirxahlıq və ədalət təşkil edəcəkdir.

Əziz dostlar!

Təhsil hər bir millətin tərəqqisinin, parlaq gələcəyinin əsasını təşkil edir. Bu sadə həqiqəti gözəl dərk edərək, dövlət siyasətinin əsas prioritetlərindən biri kimi təhsilin inkişafına böyük vəsait yatırılmaqdadır. Əsas hədəfimiz savadlı və müasir düşüncəli gəncliyin yetişməsidir. Çünki parlaq gələcəyimizi qurmaq sizin üzərinizə düşəcəkdir.

Son illər ərzində ölkəmiz böyük inkişaf yolu keçib. Nailiyyətlərimiz göz önündədir. Lakin qarşıda bizi hələ yeni hədəflər gözləyir, üzümüzə geniş üfüqlər açılır. Cənab Prezident İlham Əliyev inamlı addımlarla bizi daha gözəl bir gələcəyə doğru aparır və bu yolda sizin kimi parlaq, savadlı, cəsur və vətənpərvər gənclərə arxalanır. Gəlin birlikdə vətənimiz Azərbaycanın daha da çiçəklənməsi və qüdrətlənməsinə dəstək olaq!

Bir daha sizi məzun günü münasibətilə təbrik edir, sonrakı təhsilinizdə və fəaliyyətinizdə yeni nailiyyətlər arzu edirəm.

Yolunuz açıq olsun!

*Hörmətlə,*

***Mehriban ƏLİYEVA,***
***Azərbaycan Respublikasının***
***Birinci vitse-prezidenti***

*Bakı şəhəri, 15 iyun 2019-cu il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi və Azərbaycanın bütün vətəndaşlarını tatarıstanlılar adından və şəxsən öz adımdan təbrik edirəm.

Nadir təbii ehtiyatlara, güclü sənaye, iqtisadi və intellektual potensiala malik olan Azərbaycan ilbəil yüksək sosial-iqtisadi inkişaf, insanların rifahının yüksəlməsi göstəricilərini nümayiş etdirir. Bu, xalqın və respublika rəhbərliyinin həmrəy və fəal əməyinin heyranedici nəticəsidir.

Sizə və gözəl ölkənizin bütün vətəndaşlarına Azərbaycan naminə qurucu fəaliyyətinizdə yeni uğurlar, möhkəm cansağlığı, sülh və səadət arzu edirəm. Ümidvaram ki, qardaş xalqlarımızın firavanlığı və Rusiya-Azərbaycan strateji tərəfdaşlığının möhkəmlənməsi naminə Tatarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlıq bundan sonra da davam edəcək.

*Dərin hörmət və xoş bayram arzuları ilə,*

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan***
***Respublikasının Prezidenti***

# Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ilə görüşüb

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Rusiya Təhlükəsizlik Şurası Aparatının mətbuat katibi Yevgeni Anoşin məlumat verib. O bildirib ki, iyunun 18-də təhlükəsizlik məsələlərinə nəzarət edən yüksəkvəzifəli şəxslərin Rusiyanın Ufa şəhərində keçirilən X beynəlxalq görüşü çərçivəsində baş tutan ikitərəfli görüşdə güc və xüsusi xidmət idarələrinin qarşılıqlı fəaliyyəti, eləcə də bu ilin sonunadək təhlükəsizlik sahəsində əməkdaşlıq planı müzakirə olunub.

# Zakir HƏSƏNOV: “Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrində əsaslı islahatlar aparılır”

## Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirməyə qadirdir

İyunun 18-də Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov mətbuat nümayəndələri ilə görüşüb və onları maraqlandıran sualları cavablandırıb. AZƏRTAC xəbər verir ki, nazir görüşün Azərbaycan Ordusunun ildönümü ərəfəsində keçirildiyini və ənənə halını aldığını deyib.

Zakir Həsənov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə orduda həyata keçirilən islahatlar uğurla davam edir. 2013-cü ildən başlayaraq isə Azərbaycan Silahlı Qüvvələrində Prezident İlham Əliyevin rəhbərliyi ilə əsaslı islahatlar həyata keçirilir. Ordumuz bütün əsas istiqamətlərdə inkişaf edir və bununla bağlı sübutlar var. Bunu beynəlxalq qurumlar da yüksək qiymətləndirir. Bizim üçün əsas odur ki, xalqımız, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev buna yüksək qiymət verir. İslahatların əsas istiqamətləri ordunu yeni müasir silah, texnika, avadanlıqla təmin etmək, infrastrukturu yeniləmək, döyüş qabiliyyətini artırmaq, sosial bazanı gücləndirməkdir.

Ötən illər ərzində Azərbaycan Ordusuna müasir silahların alındığını və bununla bağlı ictimaiyyətin daim məlumatlandırıldığını vurğulayan nazir deyib: “2018-ci ildə Silahlı Qüvvələrin 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm paradda nümayiş olunan silah və texnikanın 90 faizi yeni və müasir idi. Təbii ki, paradda bütün silahlar nümayiş olunmadı.

Ali Baş Komandanın tələbi ilə həyata keçirilən islahatlar nəticəsində bizim hərbi şəhərciklər müasir səviyyədə qurulub. Bu gün Azərbaycan Ordusunun hərbi şəhərciklərinin 85 faizi yenidən qurulub, tikilib. 2018-ci ildə beş yeni böyük, müasir hərbi şəhərcik istifadəyə verilib. Bu il isə 9 hərbi şəhərciyin istifadəyə verilməsi nəzərdə tutulur. Yaxın günlərdə 3 böyük hərbi şəhərciyin açılışı olacaq. Siz görəcəksiniz ki, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunda nə qədər böyük işlər həyata keçirilib”.

Ordunun döyüş qabiliyyətinin artırılması istiqamətində də genişmiqyaslı işlərin görüldüyünü deyən Z.Həsənov bildirib: “Bilirsiniz ki, döyüş hazırlığının əsas hissəsi şəxsi heyətin, hissə və birləşmələrin səhra bacarığının artırılmasıdır. Biz tez-tez irimiqyaslı təlimlər keçiririk, müasir təlim mərkəzləri qurmuşuq. Təlimlər döyüş vəziyyətinə maksimum yaxın şəraitdə, gecə və gündüz, ilin bütün fəsillərində keçirilir. Biz gündən-günə daha böyük hissə və birləşmələri bu təlimlərə cəlb edirik.

Bir neçə il əvvəl Azərbaycan Ordusu işğal altındakı ərazilərimizdə yerləşən düşmən ordusunun birləşmələrinə böyük zərbə vurdu. 2016-cı ildəki əməliyyatların əsas nəticəsi o oldu ki, Azərbaycan Ordusunun kiçik bir hissəsi 3-4 gün ərzində Ermənistan ordusunu darmadağın etdi. Nəticədə ermənilər məcbur olub atəşkəs üçün müraciət etdilər”.

Müdafiə nazirinin sözlərinə görə, ordumuzda islahatların əsas istiqamətləri yekunlaşır. Azərbaycan Ordusunu yeni silahlarla tam şəkildə təmin edib. 2019-cu ildə əsas istiqamətlərdən biri ordunun idarə olunmasının təkmilləşdirilməsidir. Burada əsas vəzifə bütün hissə və birləşmələrin fasiləsiz, məxfi, operativ şəkildə idarə olunmasıdır. İndi bütün dünyada bu məsələyə çox ciddi fikir verilir. Ən müasir texnika bu işlərə cəlb edilir, müasir komanda-idarəetmə sistemi qurulur. Biz artıq hərbi hissələrimizi onlayn qaydada idarə edirik. Biz tabora qədər onlayn idarəetmə tətbiqinə nail olmuşuq. Ali Baş Komandan bu məsələlərə çox ciddi fikir verir və biz tezliklə bu məsələni də həll edəcəyik. Azərbaycan Ordusu aparıcı dövlətlərin təcrübəsindən və texnikalarından istifadə edərək bu məsələni böyük dərəcədə təmin edib.

Ardı 4-cü səh.

# TANAP Azərbaycan qazını Avropa sərhədinə çatdırdı

Ötən il yanvarın 23-də TANAP boru kəmərinə Gürcüstan-Türkiyə sərhədindən daxil olan “Şahdəniz” qazı bu il iyunun 15-də, tarixi bir gündə - Milli Qurtuluş Günündə Avropa sərhədinə çatdırılıb. Bu barədə SOCAR məlumat yayıb.



Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından çıxarılan qazı Türkiyəyə nəql edən TANAP boru kəməri Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə qoşulub, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşəcək. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan və 3500 kilometrlik “Cənub qaz dəhlizi”nin birləşdirici halqasını təşkil edən TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düymlük hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düymlük hissəsinin uzunluğu isə 480 kilometrdir. Mərmərə dənizi boyunca isə boru kəmərinin diametri 36 düym təşkil edir. İki fazada icra olunan layihə çərçivəsində boru kəmərinin uzunluğu (19 kilometri Mərmərə dənizindən keçməklə) ümumilikdə 1850 kilometrdir.

Keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli, planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlayıb. Boru kəməri ilə cari ilin 5 ayında Türkiyəyə 790 milyon kubmetr Azərbaycan təbii qazı nəql edilib. Bu vaxtadək isə Türkiyə TANAP-la 1,9 milyard kubmetr Azərbaycan qazı alıb. İyunun sonunadək bu həcm 2 milyard kubmetrə, cari ilin axırına kimi 4 milyard kubmetrə çatacaq. 2021-ci ildə isə bu həcm 6 milyard kubmetr təşkil edəcək.

Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. İlkin mərhələdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq.

TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası üzrə tikinti işlərinin isə 99 faizi başa çatıb. Boru kəməri bu il TAP-a birləşmək üçün hazır olacaq. TANAP layihəsi üzrə kapital xərcləri 8 milyard dollardır ki, bu vaxtadək təxminən 6 milyard dollar xərclənib.

TANAP Türkiyənin Gürcüstanla sərhədindəki Ərdəhan vilayətinin Posof mahalından başlayaraq 20 şəhər və 67 vilayətindən keçməklə qardaş ölkənin Yunanıstanla sərhədindəki Ədirnə vilayətinin İpsala qəsəbəsinədək uzanır. “Enerjinin İpək yolu” adlandırılan TANAP layihəsi təbii qazın “Şahdəniz”, eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir.

TANAP-ın səhmlərinin 51 faizi “Cənub qaz dəhlizi” QSC-yə, 7 faizi “SOCAR Turkey Enerji A.Ş.”yə (STEAŞ), 30 faizi “Botaş”a, 12 faizi isə BP şirkətinə məxsusdur.

***“Azərbaycan”***

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dövlət büdcəsindən maliyyələşdirilən qurumlarının hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını daha da artırmaq məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən aşağıda göstərilən təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 40 faiz artırılsın:

1.1. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və aparatı, Gəncə bölməsinin aparatı;

1.2. Heydər Əliyev Mərkəzi;

1.3. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi;

1.4. Azərbaycanda Atatürk Mərkəzi;

1.5. Azərbaycan Respublikasının dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri;

1.6. Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu;

1.7. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Dövlət Film Fondu;

1.8. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu;

1.9. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyi;

1.10. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi;

1.11. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. dövlət orqanlarının tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən qurumların dövlət qulluqçusu olmayan işçilərinin (Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan işçilər istisna olmaqla) vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 40 faiz artırılmasını təmin etsin;

2.2. bu Sərəncamın 1-ci hissəsində və 2.1-ci bəndində nəzərdə tutulan qurumlarda çalışan rəhbər və digər işçilərin vəzifə maaşlarının yeni məbləğlərini təsdiq etsin;

2.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.6. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Minimum aylıq əməkhaqqının artırılması haqqında

### Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Minimum aylıq əməkhaqqının məbləği 250 manat müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının, o cümlədən Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırsın;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncamın 1-ci hissəsi 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə **qərara alıram:**

1. Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını daha da artırmaq məqsədilə **qərara alıram:**

1. Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 yanvar tarixli 1893 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin maddi təminatını yaxşılaşdırmaq məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 yanvar tarixli 1893 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 16, № 2, maddə 105; 2013, № 12, maddə 1588; 2018, № 5, maddə 1013) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin aylıq vəzifə maaşları aşağıdakı məbləğlərdə müəyyən edilsin:

| | | | |
|---|---|---|---|
| 1.1. | Sədr | - | 3060 manat |
| 1.2. | Sədrin müavini | - | 2845 manat |
| 1.3. | Katib | - | 2110 manat |
| 1.4. | Mərkəzi Seçki Komissiyasının üzvü | - | 1920 manat.". |

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2019-cu il*

# Azərbaycan nümayəndə heyəti Vyanada Avstriya hökumətinin və parlamentinin üzvləri ilə görüşüb

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Avstriyada səfərdədir.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Avstriya hökumətinin və parlamentinin üzvləri ilə görüşüb.





Görüşdə Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, xarici işlər nazirinin müavini Ramiz Həsənov, Milli Məclisin komitə sədrləri Siyavuş Novruzov və Səməd Seyidov, Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov, Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhart, Avstriya parlamentinin üzvü Qeral Hauzer, Azərbaycan-Avstriya Əməkdaşlıq Şurasının rəhbərliyi iştirak ediblər.

Görüşün əvvəlində iyunun 19-da Vyanada keçiriləcək "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans üçün yaradılan şəraitə görə təşəkkür edən Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin ideya rəhbəri olduğu tədbir barədə ətraflı məlumat verib. Qeyd edilib ki, müxtəlif dinlərin və mədəniyyətlərin dinc birgə yaşadıqları Avstriya tarixən yüksək tolerantlığın hökm sürdüyü ölkə kimi tanınıb və məhz buna görə də beynəlxalq konfransın bu ölkənin paytaxtı Vyana şəhərində keçirilməsi qərara alınıb.

Şeyxülislam Avstriya nümayəndələrini bu ilin sentyabrında keçiriləcək "Dünya dini liderlərinin II Bakı sammiti"ndə iştiraka dəvət edib.

Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhart konfransın Vyanada keçirilməsindən məmnunluğunu ifadə edərək özünü əbədi bitərəf dövlət elan etmiş Avstriyada dinlərarası və mədəniyyətlərarası dialoqun mühüm əhəmiyyət daşıdığını bildirib. Bu tarixi ənənə fonunda Avstriyanın müxtəlif dini, milli, mədəni və digər görüşləri təmsil edən tərəflər arasında dialoqun baş tutduğu ölkəyə çevrildiyini qeyd edən nazir, həmçinin bu amillərlə yanaşı, iqtisadi əlaqələrin inkişafının diqqət mərkəzində durduğunu bildirib. Diqqətə çatdırılıb ki, Azərbaycanı və Avstriyanı uzun illərə söykənən dostluq əlaqələri bağlayır. Bu ilin martında Azərbaycan Prezidenti İlham Əliyevin Avstriyaya səfəri bu dostluğun zirvə nöqtəsini təşkil edib. Həmin səfər çərçivəsində Azərbaycan-Avstriya Əməkdaşlıq Şurasının əsası qoyulub. Bu şuranın əsas məqsədi iki ölkə arasındakı dostluq əlaqələrini yeni mərhələyə çıxarmaqdır. Avstriya-Azərbaycan iqtisadi əlaqələrinin dərinləşməsi ilə yanaşı, mədəni və dini mövzularda layihələrin inkişaf etdirilməsini hədəf seçən bu qurum ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına xidmət edəcək. Uzunmüddətli əməkdaşlığın inkişaf etdirilməsinə qarşılıqlı marağın mövcud olması hər iki ölkənin bu əlaqələrdən bəhrələnməsinə gətirib çıxaracaq.

Nazir bir daha iki ölkə arasında sıx və mütəmadi əlaqələrin inkişaf etməsində maraqlı olduqlarını və şəxsən özünün Azərbaycana dərin dostluq hissləri bəslədiyini ifadə edib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov görüşdə çıxış edərək Prezident İlham Əliyevin Avstriya xalqına və hökumətinin üzvlərinə ehtiram və salamlarını çatdırıb. Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan tərəfi ölkələrimiz arasında münasibətlərin daha da inkişafına dəstək verəcək və bu inkişafa maraq dövlət başçıları tərəfindən də ifadə olunub.

Cari ilin martında Prezident İlham Əliyevin Avstriyaya uğurlu səfərinin nəticəsi olaraq Azərbaycan-Avstriya Əməkdaşlıq Şurasının yaradıldığını və bu qurumun artıq öz fəaliyyət istiqamətlərini müəyyən edərək işə başladığını bildirən Əli Həsənov şuranın iki ölkə arasında əlaqələrin dərinləşməsinə töhfə verəcəyinə inandığını vurğulayıb.

Vyananın Avrasiyada dinlərarası və mədəniyyətlərarası dialoqun mərkəzlərindən biri olduğunu bildirən Prezidentin köməkçisi beynəlxalq konfransın keçirilməsi üçün məkan seçimində qərarın bu şəhərin xeyrinə verilməsinin təsadüfi olmadığını diqqətə çatdırıb. Qeyd edilib ki, dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin istiqamətlərindən biridir. Azərbaycanın müstəqillik tarixinin son 25 ilində ölkə daxilində davamlı olaraq bu istiqamətdə dialoq dövlətin yürütdüyü ali siyasi kursdur. Lakin Azərbaycan bu dialoqu ölkə daxilində reallaşdırmaqla kifayətlənmir, eyni zamanda, qarşılıqlı hörmət və rəğbətə söykənən bu dəyərləri dövlətlərarası münasibətlərin əsas prinsiplərindən biri hesab edir. Dövlətlərarası müstəvidə bu, özünü müxtəlif sivilizasiyalar arasında əlaqələrin intensivləşməsində tapır. Azərbaycan dövlətinin başçısı müxtəlif xüsusiyyətlərə malik sivilizasiyalar arasında dialoq, əməkdaşlıq və tərəfdaşlığı alternativi olmayan bir istiqamət hesab edir və dünya ölkələrinin bu siyasi xəttə əməl etməsi arzuolunandır.

Vyanada keçiriləcək konfransa toxunan Əli Həsənov qeyd edib ki, bütün dinləri və sivilizasiyaları təmsil edən nümayəndələrin, dövlət və hökumət rəsmilərinin iştirak edəcəkləri tədbirdə dinlərarası və sivilizasiyalararası əməkdaşlığa çağırış edən bəyannamənin qəbul olunacağı da gözlənilir. Konfransda müzakirəyə çıxarılacaq mövzular, ediləcək çağırışlar, onun təmsil etdiyi dəyərlər həm Azərbaycanın, həm Avstriyanın, həm də bütövlükdə Avropa İttifaqının kursuna tam uyğundur.

Qeyd edək ki, iyunun 19-da Vyanada "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda keçiriləcək beynəlxalq konfransda dünyanın 30-dan çox ölkəsini təmsil edən 300-ə yaxın dövlət, ictimaiyyət, elm və din xadimlərinin, həmçinin 5 beynəlxalq və 16 qeyri-hökumət təşkilatının rəhbərlərinin, o cümlədən BMT Baş katibinin müavinləri - M.Moratinos və R.Xalikovun, Avstriya Federal Hökumətinin və parlamentinin nümayəndələrinin, habelə Avstriyada akkreditə olunmuş səfirliklərin və beynəlxalq təşkilatların, dini konfessiyaların nümayəndələrinin iştirakı nəzərdə tutulub.

# *Novruz MƏMMƏDOV:* "Azərbaycan bu gün hərtərəfli və dinamik inkişaf yolu ilə irəliləyən müasir dövlətdir"









İyunun 15-də Tacikistanın paytaxtı Düşənbədə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin V Zirvə toplantısı keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov zirvə toplantısında iştirak edib.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon tədbirdə iştirak edən dövlət və hökumət başçılarını qarşıladı.

Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Prezident Emoməli Rəhmon zirvə toplantısını açaraq nümayəndə heyətlərinin rəhbərlərini salamladı. Dövlət başçısı terrorizm, ekstremizm kimi bəlaların regionda təhlükəsizliyə əsas təhdid olduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, bu təhdidlər region ölkələri arasında əməkdaşlığın daha da gücləndirilməsini zəruri edir. Prezident regionda ümumi maraqların təmini naminə nəqliyyat infrastrukturu layihələrinin genişləndirilməsinin önəmini bildirdi.

Bundan əvvəl quruma sədrlik edən Çin Xalq Respublikasının Sədri Si Cinpin çıxış edərək Asiya regionunda sülhün və təhlükəsizliyin təmin edilməsinin ümumi məqsəd olduğunu bildirdi. O, bütün sahələrdə birgə əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini vurğuladı. Regionda mövcud olan tolerantlığın qorunmasının vacibliyini vurğulayan Si Cinpin Asiyada əməkdaşlığın inkişafına maneə törədən təhdidlərdən bəhs etdi.

Zirvə toplantısında çıxış edən Baş nazir Novruz Məmmədov tədbirin yüksək səviyyədə təşkilinə görə Prezident Emoməli Rəhmona təşəkkürünü bildirdi, Tacikistan Respublikasının quruma sədrliyinin Asiya regionunda sülh, sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Baş nazir Novruz Məmmədov qeyd etdi ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə Asiya qitəsində sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi üçün dialoq və əməkdaşlıq platformasıdır. "Şübhəsizdir ki, silahlı münaqişələr, terrorizm, irqçilik, radikalizm, dözümsüzlük və kibertəhlükələr beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi risklər doğurur. Beynəlxalq və regional təhlükəsizlik bir-biri ilə sıx bağlıdır. Dünyanın bir bölgəsində sülh və sabitliyin pozulması digər regionlarda da təhlükəsizlik üçün təhdidlər yaradır", - deyə Novruz Məmmədov bildirdi.

Ermənistanın 30 ilə yaxındır beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirdiyini diqqətə çatdıran Baş nazir bu siyasət nəticəsində Azərbaycan ərazisinin 20 faizinin - Dağlıq Qarabağın və ətrafındakı yeddi rayonun Ermənistan tərəfindən işğal olunduğunu vurğuladı. Bildirdi ki, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası və digər təşkilatlar tərəfindən müvafiq qərar və qətnamələr qəbul edilib. Həmçinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini dəstəkləyən bəyanat və qərarlar qəbul olunub. Münaqişə beynəlxalq hüququn normalarına, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və Helsinki Yekun Aktına əsasən Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməlidir.

Novruz Məmmədov dedi ki, Azərbaycan bu gün hərtərəfli və dinamik inkişaf yolu ilə irəliləyən müasir dövlətdir. Ölkəmizin iştirakçısı və təşəbbüskarı olduğu müxtəlif beynəlxalq layihələrin geniş regional əməkdaşlıq üçün möhkəm əsas yaratdığını vurğulayan Baş nazir dedi: "Biz nəqliyyat infrastrukturuna - dəniz limanları, dəmir yolları, hava limanları və magistral yollara böyük sərmayə yatırmaqla əlverişli coğrafi mövqeyimizi real nəqliyyat imkanlarına çevirmişik. Bu gün Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi vacib tranzit ölkəyə çevrilib. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmiryol xətti Asiya və Avropa arasında vacib logistik bağlantıdır. Bütün bunlar həm də beynəlxalq əməkdaşlıq formatını yaradır, xalqları və ölkələri bir-birinə bağlayır, sülh və sabitliyə xidmət edir".

Azərbaycanın 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcəyini xatırladan Baş nazir bildirdi ki, ölkəmiz Qoşulmama Hərəkatının yaratdığı çoxtərəfli platformadan istifadə edərək beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsi, ölkələr arasında dialoq və əməkdaşlığın inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcək.

Digər dövlət və hökumət başçıları da çıxışlarında Asiya regionunda ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, mehriban qonşuluq, daxili işlərə qarışmamaq prinsipləri əsasında əməkdaşlığın qurulmasının önəmini qeyd etdilər, mövcud münaqişələrin regionun təhlükəsizliyinə ciddi təhdid olduğunu vurğuladılar. Regionun sabitliyinin təmini üçün ilk növbədə bu münaqişələrin nizamlanmasının vacibliyi bildirildi.

Həmçinin çıxışlarda narkotik qaçaqmalçılığının, nüvə silahının yayılmasının qarşısının alınmasının, terror qruplaşmalarına qarşı mübarizənin zəruriliyi diqqətə çatdırıldı, böyük İpək yolunun bərpasına dəstək ifadə olundu.

Sonda zirvə toplantısının bəyannaməsi qəbul edildi.

❖ ❖ ❖

Səfər çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov ilə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun görüşü olub.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu, həmçinin müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı.

# *Zakir HƏSƏNOV:* "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrində əsaslı islahatlar aparılır"

## Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirməyə qadirdir

*Əvvəli 1-ci səh.*




Kibertəhlükəsizlik və radioelektron mübarizə sahəsi də daim diqqətdə saxlanılır. Aparıcı dövlətlərin təcrübəsindən və texnikalarından istifadə olunaraq bu məsələ də həllini tapıb.

Nazir xüsusi qeyd edib ki, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin, hazırlığının, təcrübəsinin artırılmasında Türkiyə Silahlı Qüvvələrinin rolu böyükdür. Türkiyə Silahlı Qüvvələri dünyanın aparıcı ordularından biridir. Qardaş ölkənin ordusu yüksək döyüş qabiliyyətinə malikdir. Biz Türkiyə ordusunun təcrübəsindən bəhrələnirik və 2013-cü ildən başlayaraq birgə təlimlərə başlamışıq. Hər il bu təlimlərin sayını artırırıq. Əgər 2018-ci ildə planda 7 təlim var idisə, 2019-cu ildə bu təlimlərin sayını 13-ə çatdırmışıq. Təlimlər bütün qoşun növlərini əhatə edir. Hər iki ölkənin mütəxəssisləri birgə təlimlər keçir, qərargahların fəaliyyəti uzlaşır, komandirlər birgə qarşılıqlı əlaqədə müasir döyüşün təşkilini öyrənir. Gələcək fəaliyyətimizdə bunlardan istifadə edəcəyik.

General-polkovnik Zakir Həsənov qeyd edib ki, Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) texnika parkının yenilənməsi istiqamətində də işlər aparılır. HHQ-nin təyyarə və helikopterləri modernləşdirilib, uzaq mənzilə və yüksək dəqiqliyə malik silahlarla təchiz olunub. Azərbaycan Ordusu helikopter parkını da tam yeniləyib. Bizim istifadəmizdə ən müasir Mi-35M, Mi-24, Mi-17 helikopterləri mövcuddur. Bu helikopterlər dünyanın aparıcı dövlətləri tərəfindən təkmilləşdirilib və yeni silahlarla təchiz olunub. Onlar indi uzaq məsafədən hədəfi dəqiqliklə vura bilir.

Ermənistanın Rusiya ilə Su-30SM təyyarələrinin alınmasına dair imzaladığı müqaviləyə münasibət bildirən Zakir Həsənov qeyd edib ki, ekspertlər bu təyyarələri müsbət qiymətləndirmirlər. Bu təyyarələr bizim müharibə teatrımıza uyğun deyil.

Müdafiə naziri qeyd edib ki, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin gücləndirilməsi istiqamətində işlər gedir, danışıqlar aparılır, texniki məsələlər həll olunur. Bu istiqamətdə bir neçə layihə var. Bu yaxınlarda layihələrə başlanması ilə bağlı məlumat veriləcək. Biz Xəzər dənizinin Azərbaycana aid hissəsinə gecə-gündüz, fasiləsiz tam nəzarət edirik. Xəzər dənizində dost ölkələrlə sərhədik və heç bir təhlükə görmürük.

Nazir gəncləri sosial şəbəkələrdə diqqətli olmağa, təxribatlara uymamağa çağıraraq deyib: "Vətən, millət, dövlətçilik məsələlərində bütün şəxsi mövqelər kənarda durmalıdır. Biz hamımız bir olmalıyıq. Bəzən sosial şəbəkələrdə Azərbaycan adı altında əsassız məlumatlar paylaşılır. Ermənilərin məqsədi dövlətçiliyimizə və ordumuza qarşı saxta məlumatlar yaymaqdır. Sosial şəbəkələrdə belə məlumatları yayanların 90 faizi ermənilər, digərləri isə öz şəxsi mövqelərindən çıxış edən cılız insanlardır. Vətən, millət, dövlət məsələsində bütün maraqlar kənara qoyulmalıdır. Biz hamımız bir olmalıyıq".

Ermənistanın müdafiə naziri David Tonoyanın hərbi qulluqçumuz, əsgər Elşən Xəlilovun vurulmasına şəxsən əmr verməsi ilə bağlı dediyi fikrə münasibət bildirən Zakir Həsənov vurğulayıb: "Deyə bilərəm ki, Ermənistanın müdafiə naziri David Tonoyan yalan danışır. O özünü reklam edir. Son hadisələr zamanı biz ermənilərə layiqli cavab vermişik. Bir müddət sonra onlar öz itkilərini bir-bir üzə çıxaracaqlar. Xalqımız Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusundan qələbələr gözləyir. 2016-cı ildə üç gün ərzində Azərbaycan Ordusunun kiçik bir hissəsi bütün Ermənistan ordusunu darmadağın etdi. Azərbaycan Ordusu bu qələbəni hər dəqiqə nümayiş etdirməyə hazırdır".

Mayın 30-da səhər saatlarında cəbhənin Ağdam rayonu istiqamətində düşmən tərəfindən açılan snayper atəşindən Azərbaycan Ordusunun hərbi qulluqçusu, mayor Omarov Aqil Akif oğlunun şəhid olmasına münasibət bildirən nazir qeyd edib: "Hər bir şəhidimiz bizim üçün əzizdir. Əsgər, zabit, nazir daxil olmaqla biz hamımız vətən, millət naminə cəbhədə öz həyatımızı təhlükə qarşısında qoyuruq və bununla qürur duyuruq. Bu günlərdə Azərbaycanın hərbi qulluqçusu, mayor şəhid oldu. Bəziləri deyir ki, mayor orada nə edib?! Şəhid mayor orada mənim əmrimi yerinə yetirirdi. Ərazidə döyüş hazırlığı ilə məşğul olurdu. Ön xətdə olan şəxsi heyətimiz gecə-gündüz döyüş hazırlığı ilə məşğuldur. Onlar taktiki, atəş, ideoloji hazırlıq, istehkam hazırlığı ilə məşğul olurlar. Həmin vaxt tabor komandiri orada döyüş hazırlığı ilə məşğul olub".

Azərbaycan sərhədçilərinin Ermənistanla dövlət sərhədində vəzifələrinin öhdəsindən bacarıqla gəldiklərini vurğulayan nazir bildirib: "Ötən əsrin 90-cı illərindən Ermənistanla sərhədi Azərbaycan Ordusu mühafizə edirdi. Azərbaycanın Sərhəd Qoşunları inkişaf edir, yeni silahlarla təchiz edilir, döyüş hazırlığı ilə məşğul olur. Ali Baş Komandan Ermənistanla sərhədin kiçik bir hissəsinin mühafizəsinin Sərhəd Qoşunlarına təhvil verilməsi barədə göstəriş verdi ki, gələcəkdə bu sahə sərhədçilərə həvalə olunsun. Bu gün sərhədçilər öz işlərinin öhdəsindən bacarıqla gəlirlər. Gələcəkdə Ermənistanla dövlət sərhədinin digər hissələrinin də mühafizəsinin Sərhəd Qoşunlarına verilməsi barədə Ali Baş Komandanın qərarı olarsa, bu, ordumuzun ehtiyatını daha da artırar. Ermənilər də bunu başa düşürlər".

Azərbaycan Ordusunun şəxsi heyətinin 80 faizinin peşəkar hərbçilərdən ibarət olduğunu vurğulayan nazir deyib: "Bu gün orduda döyüş qabiliyyətini müəyyən edən vəzifələrdə peşəkar hərbçilər xidmət edirlər. Tankların, zirehli döyüş maşınlarının, artilleriya vasitələrinin, gəmilərin, hava hücumundan müdafiə texnikalarının heyətləri, sürücülər orduda müqavilə əsasında xidmət edirlər. Artıq onlar öz sahələrində kifayət qədər peşəkardırlar. Müddətli hərbi xidmət keçən əsgərlər isə yalnız atıcı vəzifələrində xidmət edirlər".

Müdafiə naziri xüsusi vurğulayıb ki, Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirməyə qadirdir. Keçirilən təlimlər də məhz buna hesablanıb.

# Müdafiə naziri yeni təlim mərkəzinin açılışında iştirak edib





İyunun 18-də Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni inşa olunan təlim mərkəzinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, mərkəz haqqında tədbir iştirakçılarına ətraflı məlumat verilib. Bildirilib ki, burada təlimlərə cəlb olunacaq şəxsi heyətin yerləşdirilməsi və fəaliyyəti üçün lazımi infrastruktur yaradılıb. Real döyüş şəraitinə uyğun inşa edilən təlim mərkəzində atış çalışmaları, müxtəlif döyüş və xüsusi texnikanın mürəkkəb relyef və hava şəraitində idarə olunması üzrə praktiki vərdişlərin təkmilləşdirilməsi məqsədilə məşğələlərin keçirilməsi, döyüş tapşırıqlarının tədris və praktiki məşq etdirilməsi nəzərdə tutulub.

Müdafiə naziri poliqonun ərazisindəki hərbi infrastruktur obyektlərinə baş çəkib, müxtəlif bölmələr ilə keçirilən səhra məşğələlərini izləyib.



# Ankarada Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi münasibətilə konfrans keçirilib





Azərbaycanın Türkiyədəki səfirliyində ölkəmizin diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda Ankarada akkreditə olunan diplomatik korpusun rəhbərləri və təmsilçiləri, Azərbaycan və Türkiyənin tanınmış alimləri, qardaş ölkənin paytaxtında təhsil alan tələbələr iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim 100 il əvvəl təsis olunan Azərbaycanın diplomatik orqanlarının ötən dövrdəki fəaliyyəti və müasir inkişaf istiqamətləri, konfransın məqsəd və mahiyyəti barədə məlumat verib.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin məruzəsi dinlənilib. Azərbaycanın dövlətçilik tarixi, ənənələri, coğrafi mövqeyi, diplomatik orqanlarının yaranması və hazırkı vəziyyəti, o cümlədən Prezident İlham Əliyevin rəhbərliyi ilə müxtəlif sahələrdə aparılan köklü islahatlar, ölkəmizin sosial-iqtisadi inkişaf modeli və regionun nəqliyyat qovşağına çevrilməsi, iqtisadiyyatın şaxələndirilməsi və sair mühüm məqamlar barədə geniş məlumat verən şöbə müdiri Hikmət Hacıyev Azərbaycan xarici siyasətinin əsasları, onun strateji mövqeyi, region dövlətləri ilə münasibətləri, həyata keçirdiyi və regionun siyasi-iqtisadi xəritəsini dəyişən enerji və nəqliyyat layihələri barədə danışıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin real vəziyyətini təhlil edən Prezident Administrasiyasının rəsmisi Azərbaycan rəhbərliyinin həyata keçirdiyi sülh danışıqları prosesinin təcavüzkar Ermənistan hakimiyyətinin qeyri-konstruktiv mövqeyi səbəbindən nəticə vermədiyini diqqətə çatdıraraq bildirib ki, işğalçı tərəf davamlı olaraq təmas xəttində Azərbaycanın hərbi qulluqçularının və mülki vətəndaşlarının həlak olması ilə nəticələnən təxribatlar törətməkdədir. Məruzəçi işğalçı tərəfin hazırda regiondakı bütün iqtisadi layihələrdən təcrid olunduğunu vurğulayaraq əminliklə bildirib ki, əgər təcavüzkar ölkə öz işğalçılıq siyasətindən əl çəksə, bu, ilk növbədə, Ermənistan üçün faydalar gətirər.

Sonda Prezident Administrasiyasının şöbə müdiri iştirakçıları maraqlandıran sualları cavablandırıb.

# Pasiyentlərin və tibb işçilərinun hüquqları ilə bağlı qanun layihəsi hazırlanacaq



İyunun 18-də Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib. Əvvəlcə "Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsi"nə qoşulmaq haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi müzakirə olundu. Komitənin sədri Əhliman Əmiraslanov dedi ki, 1921-ci ildə yaranan Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsi yenilənib. Qanun layihəsi də ölkəmizin 2013-cü ildə düzəliş edilmiş bu Nizamnaməyə qoşulması ilə bağlıdır.

Layihə Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olundu.

Qısa müzakirədən sonra "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (III oxunuş) və "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Gömrük Məcəlləsində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" və "Çayçılıq haqqında" qanunlarında dəyişiklik edilməsi barədə" (birinci oxunuş) qanun layihələri də plenar iclasın müzakirəsinə tövsiyə olundu.

İclasda "Pasiyentlərin və tibb işçilərinin hüquqları" mövzusunda dinləmələr də keçirildi. Komitənin sədri qeyd etdi ki, "Pasiyentlərin və tibb işçilərinin hüquqları haqqında" yeni qanunun qəbulu ölkəmizdə pasiyent-tibb işçisi və pasiyent-tibb müəssisəsi münasibətlərinin inkişafında və hüquqi tənzimlənməsində mühüm rol oynaya bilər. Xüsusən yaxın vaxtlarda icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar belə bir qanunun qəbulunun əhəmiyyəti vurğulandı. Çünki icbari tibbi sığortanın tam tətbiqi zamanı pasiyentlərlə tibb işçiləri arasında yeni münasibətlər yaranacaq.

Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev, deputatlardan Sədaqət Vəliyeva, Qənirə Paşayeva, Məlahət İbrahimqızı, İlham Məmmədov, Kamaləddin Qafarov, Rəşad Mahmudov və iclasa dəvət olunmuş mütəxəssislər yeni qanun layihəsi ilə bağlı təkliflərini bildirdilər. Yekunda məsələ ilə bağlı işçi qrupunun yaradılması qərara alındı.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bakı Ombudsmanların XVI Beynəlxalq Konfransına evsahibliyi edib



İyunun 18-də paytaxtımızda Ombudsmanların XVI Bakı Beynəlxalq Konfransı işə başlayıb.

AZƏRTAC xəbər verir ki, “Ədalətli sülh və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında ombudsmanların rolu” mövzusunda keçirilən konfrans Ombudsman Aparatının təşkilatçılığı və UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının dəstəyi ilə baş tutub.

Tədbirdə əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib.

Konfransı açan Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlara seçki hüququnun verildiyini deyib. Bildirib ki, bu gün müasir müstəqil Azərbaycan dövləti vətəndaşlarının sosial rifahının yaxşılaşdırılması üçün bütün imkanlarını səfərbər edib. Bu səylər, görülən işlər nəticəsində Azərbaycan artıq dünyada öz sözü, yeri olan dövlət kimi tanınır.

“Ölkəmizdə təkcə iqtisadi, sosial sahədə deyil, eləcə də vətəndaşlarının hüquqlarının qorunması istiqamətində də uğurlu addımlar atılır. Bu sahə Azərbaycan Prezidentinin ən çox diqqət ayırdığı istiqamətlərdəndir. Azərbaycanda dövlət və vətəndaş həmrəyliyi var. Ombudsman təsisatının yaradılması da Azərbaycan dövlətinin öz vətəndaşlarının hüquqlarının qorunması məsələsinə olan diqqətinin bariz nümunəsidir”,- deyə Elmira Süleymanova vurğulayıb.

Baş Nazirin müavini Əli Əhmədov insan hüquqlarının müasir cəmiyyətin ən ali dəyərlərindən olduğunu bildirərək deyib: “Azərbaycan vətəndaşlarının hüquqlarının qorunmasında ən vacib təsisatlardan biri də ombudsmandır. Sülh və dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında ombudsmanların böyük rolu var”.

Dayanıqlı İnkişaf Məqsədləri barədə danışan Əli Əhmədov Azərbaycan hökumətinin bu proqramı uğurla icra etdiyini söyləyib. Qeyd edib ki, bu proqramın ən əsas qayələrindən biri sülhün təmin edilməsidir. Etibarlı sülh olmadan dayanıqlı inkişaf, dayanıqlı inkişaf olmadan sülh olmur. Azərbaycan xalqı sülhsevər cəmiyyət olmasına baxmayaraq, 30 ilə yaxındır ki, işğala məruz qalıb. Torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal olunub, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Milli Məclisin Sədr müavini Bahar Muradova Azərbaycanın insan hüquqları məsələlərinin müzakirə olunduğu və uğurlu nəticələrin əldə edildiyi məkan olduğunu deyib. Bildirib ki, Azərbaycan dövləti multikulturalizmi, həmrəyliyi vətəndaşlarımızın həyat tərzi kimi görür. Azərbaycan bu istiqamətdə daim dünya ölkələrini bir araya gətirir. Azərbaycan dünyaya sülh mesajı verən ölkə kimi də tanınır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə toxunan B.Muradova deyib ki, Ermənistan dövlətinin qeyri-konstruktiv mövqeyi münaqişənin həllində əsas problemlərdən biridir. Ermənistan dövləti Metsamor AES-in fəaliyyətini davam etdirməklə dayanıqlı inkişaf məqsədlərinə zərbə vurur.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai Dayanıqlı İnkişaf Məqsədləri barədə danışıb. Bildirib ki, insan hüquqları məsələsi bu proqramın əsas qayələrindən birini təşkil edir. Ombudsmanlar insan hüquqlarının qorunmasında əhəmiyyətli rol oynayır. İnklüziv cəmiyyətin yaradılmasında ombudsmanların rolu böyükdür. Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinə sadiq dövlətdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova deyib ki, qadın və uşaq hüquqları məsələsi insan hüquqlarının əhəmiyyətli hissəsini təşkil edir. Hələ 1918-ci ildə Azərbaycanda qadınlara seçib-seçilmək hüququ verilmişdi.

Digər sahələr kimi, qadın və uşaq hüquqlarının təmin olunması da Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Azərbaycanda gender bərabərliyi ilə bağlı qanunların qəbul edilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın böyük rolu olub.

Bu gün qadınlar Azərbaycanın iqtisadiyyatında, elmində və digər sahələrində əhəmiyyətli rol oynayırlar. Qadınlar sahibkarlıqla məşğul olur, ölkəmizin inkişafına töhfələrini verirlər.

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Baş katibi Elnur Sultanov çıxış edərək 1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda insan hüquqları sahəsində böyük addımlar atıldığını deyib. Bildirib ki, bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Azərbaycan bir çox beynəlxalq təşkilatlarla, o cümlədən UNESCO ilə yaxından əməkdaşlıq edir. 2008-ci ildən Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlanan “Bakı Prosesi” bu əməkdaşlığın bariz nümunəsidir. Bu il Milli Komissiyanın yaranmasının 25 illiyinin qeyd olunduğunu bildirən Baş katib Azərbaycan-UNESCO əlaqələrinin genişlənməsində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın müstəsna xidmətlərini vurğulayıb. Azərbaycan UNESCO ilə birgə bir sıra Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində əhəmiyyətli rol oynayır.

Konfrans çərçivəsində keçirilən plenar iclasda ombudsman Elmira Süleymanova “Ədalətli sülh dayanıqlı inkişaf məqsədlərinə nail olunmasının qarantıdır”, Türkiyənin baş ombudsmanı Şeref Malkoç “Yaxşı idarəçilik və bürokratiyanın Dayanıqlı İnkişaf Məqsədlərinə təsirləri”, Rusiyanın İnsan Hüquqları üzrə Müvəkkilinin müşaviri Vyaçeslav Tolmaçov “Dayanıqlı İnkişaf Məqsədləri və onun indikatorları kontekstində Rusiyanın hüquq müdafiə gündəliyi”, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova “Azərbaycanda dayanıqlı inkişafa yönəlmiş islahatlar”, Rusiyanın Tatarıstan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Sariya Saburskaya “Dayanıqlı inkişaf, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsində tərəfdaşlıq: Tatarıstan Respublikası ombudsmanının təcrübəsi”, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Ülkər Bayramova “Naxçıvan Muxtar Respublikasında Dayanıqlı İnkişaf Məqsədlərinin icrası sahəsində görülən işlər” mövzularında məruzələrlə çıxış ediblər.

Tədbir müzakirələrlə davam edib.

# Dövlət Sərhəd Xidmətində Nəsiminin 650 illik yubileyinə həsr edilmiş tədbir keçirilib

Dahi Azərbaycan şairi, mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilmiş silsilə tədbirlər Dövlət Sərhəd Xidmətində böyük təntənə ilə qeyd edilir. Hərbi hissə və bölmələrdə keçirilən seminarlarda, ədəbi-bədii gecələrdə elm və incəsənət xadimləri, yerli icra hakimiyyəti orqanlarının və ictimaiyyətin çoxsaylı nümayəndələri iştirak edirlər.

Bu tədbirlər çərçivəsində iyun ayının 17-də Dövlət Sərhəd Xidmətində Azərbaycan Respublikasının əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin, Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasovun, AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, professor Almaz Ülvi Binnətovanın və Azərbaycan Respublikasının xalq artisti, dövlət mükafatı laureatı Şeyx Əbdül Mahmudbəyovun iştirakı ilə keçirilən tədbirdə Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustası, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış, bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmiş, dərin poetik fikirləri ilə dövrün elmi-fəlsəfi düşüncələrinin ifadəçisinə çevrilmiş, adı mərdlik, fədakarlıq və iradə rəmzi kimi çəkilən dahi İmadəddin Nəsiminin həyat və yaradıcılığından ətraflı məlumat verilmişdir.



Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olması və məhz dahi öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyinin UNESCO-nun tədbirləri siyahısına daxil edilməsi və 1973-cü ildə beynəlxalq miqyasda qeyd edilməsi xüsusi olaraq vurğulanmışdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qayğısı ilə 2017-ci ildə Parisdə Nəsiminin ildönümünün qeyd olunması, ötən il Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə Nəsimi poeziya festivalının keçirilməsi və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncama əsasən 2019-cu ilin ölkəmizdə “Nəsimi ili” elan olunması bir daha ölməz şairin yaradıcılığına, onun irsinə töhfə olmaqla yanaşı, eyni zamanda bütövlükdə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə və milli-mənəvi dəyərlərimizə dövlətimiz tərəfindən göstərilən ehtiramın ifadəsi böyük minnətdarlıqla qeyd edilmişdir.

Tədbirin sonunda Bakı Bələdiyyə Teatrının kollektivi İmadəddin Nəsiminin həyat və yaradıcılığına həsr edilmiş bədii kompozisiya nümayiş etdirmişdir.

***“Azərbaycan”***

# VII Muğam Televiziya Müsabiqəsi başa çatıb

## *Müsabiqə qalibləri mükafatlandırılıb*

Üç ay müddətində həyəcan dolu anların yaşandığı VII Muğam Televiziya Müsabiqəsi başa çatıb. AZƏRTAC xəbər verir ki, iyunun 15-də Heydər Əliyev Mərkəzində keçirilən final gecəsi 7 gənc iddiaçının dolğun ifası ilə yadda qalıb.

Bildirilib ki, gözəl mədəniyyət hadisəsi kimi yadda qalan Muğam Televiziya Müsabiqəsinin finalı ölkəmizin salnaməsinə qızıl hərflərlə yazılmış ictimai-siyasi hadisəni - Milli Qurtuluş Gününü bayram etdiyimiz tarixi məqama təsadüf edir.

Vurğulanıb ki, xalqımızın həmişə fəxr etdiyi, orijinal forma və məzmunu ilə seçilən muğam sənəti qərinələrdən keçərək müasir dövrümüzə çatıb. Mədəniyyətimizin nəinki Şərq aləmində, Avropada, bütün dünyada tanıdılmasına səbəb olub. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü, dəstəyi ilə milli-mənəvi dəyərlərimizin daşıyıcısı olan xalq sənəti nümunələri UNESCO-nun mədəni irs siyahısına daxil edilib. Bu nümunələrdən biri də muğamdır. Heydər Əliyev Fondunun muğam sənəti ilə bağlı həyata keçirdiyi layihələr sırasında Muğam Televiziya Müsabiqəsi xüsusi yer tutur. 2005-ci ildən bu günə kimi ardıcıl olaraq iki ildən bir keçirilən müsabiqə muğam irsinin qorunub saxlanılmasına, gələcək nəsillərə ötürülməsinə, gənc istedadların aşkar edilməsinə xidmət edir. Heydər Əliyev Fondunun dəstəyi, AzTV-nin təşkilatçılığı, Mədəniyyət Nazirliyinin iştirakı ilə Mədəniyyət Fondunun layihəsi əsasında keçirilən müsabiqə əsl muğam marafonuna çevrilib.

Qeyd edilib ki, VII Muğam Televiziya Müsabiqəsinə 400 iştirakçı sənəd verib. Onlardan 20-si layihədə iştirak etmək hüququ qazanıb. İştirakçılardan iki nəfəri əslən iranlıdır. Müsabiqə hər həftənin 2-ci və 4-cü günlərində AzTV və “Mədəniyyət” kanallarında canlı olaraq yayımlanıb.

VII Muğam Televiziya Müsabiqəsinin final gecəsində 7 xanəndə - Vəliş Mirzəyev, Faiq Əkbərov, Rəvan Qaçayev, Zülfiyyə Cəbrayılzadə, Murad Rüstəmzadə, İlahə Rüstəmova və Xəyal Hüseynov ifalarını təqdim ediblər. Gecədə İmadəddin Nəsiminin qəzəlləri üstə muğam şöbələri və təsniflər səslənib.

Sonra münsiflər heyətinin üzvləri - xalq artistləri Əlibaba Məmmədov, Arif Babayev, Mənsum İbrahimov, Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Bəstəkarlar İttifaqının katibi, əməkdar incəsənət xadimi Sərdar Fərəcov və müsabiqənin icraçı direktoru, Yazıçılar Birliyinin katibi İlqar Fəhmi qalibləri müəyyənləşdirmək üçün məşvərət otağına dəvət olunublar.

Əvvəlcə müsabiqənin diplomantları təltif olunublar. İki gənc ifaçıya - Suma Tapdıqovaya və İran İslam Respublikasının təmsilçisi Hüseyn Səbaya müsabiqənin xüsusi mükafatı təqdim edilib.

Gənc xanəndələr İlahə Rüstəmova və Xəyal Hüseynov müsabiqədə birinci yeri qazanıblar. Birinci yerlərin sahiblərinə milli geyim dəsti təqdim olunub.

İkinci yeri Murad Rüstəmzadə və Zülfiyyə Cəbrayılzadə, üçüncü yeri isə Vəliş Mirzəyev, Rəvan Qaçayev və Faiq Əkbərov tutublar.

Qaliblərə mükafatları münsiflər heyətinin üzvləri təqdim ediblər.

Qaliblərin mükafatlandırılmasından sonra çıxış edən müsabiqənin icraçı direktoru, Yazıçılar Birliyinin katibi İlqar Fəhmi muğam sənətinin inkişafına verdiyi yüksək dəstəyə görə Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya münsiflər heyəti adından dərin təşəkkürünü bildirib.

Daha sonra qalib xanəndələr “Qarabağ şikəstəsi”ni ifa ediblər.

# Məzunlar Bakı Konqres Mərkəzində toplaşdılar





İyunun 15-də Bakı Konqres Mərkəzində Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Azərbaycan Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə “Gələcəyə doğru” adlı məzun gecəsi keçirilib. Mərasimdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Təhsil, Gənclər və İdman nazirliklərinin məsul işçiləri iştirak ediblər. Qonaqlar əvvəlcə foyedə gənclər təşkilatlarına məxsus müxtəlif məzmunlu stendlərlə tanış olublar.

Təhsil naziri Ceyhun Bayramov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın məzunlara təbrik məktubunu iştirakçıların diqqətinə çatdırıb.

Sonra Azərbaycanda təhsilə, gənclərə və idmana dövlətimiz tərəfindən qayğıdan bəhs edən videoçarx nümayiş olunub.

Çoxsaylı məzunların qatıldığı tədbir maraqlı konsert proqramı ilə davam edib.

***AZƏRTAC***

# Azərbaycanın 4 sosial layihəsi yaxşı təcrübə nümunəsi kimi beynəlxalq mükafata layiq görülüb




Beynəlxalq Əmək Təşkilatının (BƏT) İsveçrənin Cenevrə şəhərində keçirilən Beynəlxalq Əmək Konfransının 108-ci sessiyasında iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev sessiyada çıxış edib.

Konfrans iştirakçılarını BƏT-in 100 illik yubileyi münasibətilə təbrik edən nazir təşkilatın irəli sürdüyü təşəbbüslərin dünyada sosial ədalət və sosial dialoqa nail olmaq üçün birgə tədbirlərin müəyyən edilməsində ümumi bir platformaya çevrildiyini qeyd edib. S.Babayev bildirib ki, Dördüncü Sənaye İnqilabı ərəfəsində rəqəmli texnologiyaların tətbiqi və süni intellektin yaranması dünyada misli görünməmiş iqtisadi artımlara, əmək və sosial əlaqələrin inkişafına, əmək bazarında yeni peşələrin yaranması prosesinin sürətlənməsinə və mövcud bacarıqların təkmilləşməsinə səbəb olur.

Nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, BƏT çağırışlarına uyğun olaraq Azərbaycanda sosial tərəfdaşlığın inkişafından bəhs edən nazir bildirib ki, ölkədə innovativ iqtisadiyyatın yaradılması, əmək məhsuldarlığının yüksəldilməsi və sosial rifahın artırılması Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilən uğurlu dövlət siyasətinin strateji məqsədidir. Ötən 15 il ərzində ölkəmizdə ümumdaxili məhsulun artımı 3,3 dəfə, sənaye istehsalı 2,6 dəfə, orta əməkhaqqı 7 dəfə, minimum əməkhaqqı 15 dəfə artıb, işsizlik və yoxsulluq səviyyəsi 5 faizə enib. Təkcə bu il reallaşdırılan sosial paket minimum əməkhaqqı və pensiyaların 40 faiz, sosial müavinətlərin və təqaüdlərin orta hesabla 100 faiz artması, digər əsas tədbirlər nəticəsində 3 milyon insanın rifahına ciddi dəstək olub.

S.Babayev Azərbaycanın 2019-2030-cu illər üçün Məşğulluq Strategiyasının, qəbul edilmiş digər sənədlərin aktiv əmək bazarı proqramlarının genişlənməsini və yüksək səmərəliliyin təmin olunduğunu, ölkədə məşğulluq xidmətlərinin yeni modelinin tətbiq edildiyini diqqətə çatdırıb. O, Azərbaycanın yeni DOST layihəsi, həmin layihənin dövlət sosial xidmətlər sisteminə gətirdiyi innovativ yeniliklər, elektron pensiya təyinatı sistemi, yeni “e-sosial” reyestri, nazirliyin Mərkəzi Elektron İnformasiya Sistemindəki altsistemlər, həmçinin “Məşğulluq” altsistemi və s. barədə məlumat verib.

BƏT-lə birgə icra olunan 2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramının əhəmiyyətini vurğulayan nazir bildirib ki, bu ilin mayında Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) Avropa Sosial Təminat Forumuna evsahibliyi edən Azərbaycanın 4 sosial layihəsi yaxşı təcrübə nümunəsi kimi BSTA-nın xüsusi mükafatına layiq görülüb. Bu və Azərbaycanın BƏT-in İdarəetmə Şurasında təmsil olunması ölkəmizin sosial-iqtisadi sahədə uğurlu islahatlarına beynəlxalq miqyasda yüksək qiymət verilməsinin təzahürüdür.

Nazir çıxışında vurğulayıb ki, bu gün həll edilməmiş silahlı münaqişələr və terror təhlükəsi təkcə ayrı-ayrı ölkələrdə və ya regionlarda deyil, bütün dünyada sosial inkişaf imkanlarını məhdudlaşdırır. Erməni təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğalı və xüsusi qayğıya, sosial müdafiəyə ehtiyac duyan milyondan artıq qaçqın və məcburi köçkünün olması bütün regionda sosial-iqtisadi nailiyyətlərin daha çox olması üçün ciddi maneə törədir. S.Babayev ona görə də bu gün BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə və BƏT-in bir çox strateji məqsədlərinə nail olunmasına mane olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəldilmiş beynəlxalq səylərin artırılmasının vacibliyini diqqətə çatdırıb.

O, Azərbaycanın BƏT-in prinsiplərinə və BƏT-lə əməkdaşlıqdan irəli gələn öhdəliklərə sadiqliyini və müsbət təcrübələrin mübadiləsi da daxil olmaqla ölkəmizin geniş əməkdaşlığa daim hazır olduğunu vurğulayıb.

# Vətəndaşların müraciətləri dinlənilib

Vergilər nazirinin müavini Sahib Ələkbərov İmişli şəhərindəki Vergiödəyicilərinə Xidmət Mərkəzində İmişli, Ağcabədi, Beyləqan, Xocavənd, Füzuli və Laçın rayonlarından olan vətəndaşları qəbul edib.

Nazirliyin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, qəbulda vergi qanunvericiliyinin tətbiqi, sahibkarlıq subyektlərində uçotun aparılması və şəffaflaşma prosesində qarşıya çıxan çətinliklər, vergilərin hesablanması və ödənilməsi, e-qaimələrdən istifadə zamanı yaranan suallar, maliyyə sanksiyaları, vergi borcları, əmək münasibətləri sahəsində şəffaflığın təmin olunması, vergi orqanlarında işlə təminat, həmçinin vergi inzibatçılığı sahəsində vergiödəyicilərinin qarşılaşdıqları bir sıra məsələlər qaldırılıb.

Vətəndaşların müraciətləri dinlənilib, onların bəziləri yerindəcə həll olunub, digərləri barədə nazirliyin müvafiq strukturlarına aidiyyəti tapşırıqlar verilib.

* * *

ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iyunun 17-də “Azərsu”nun sədrinin birinci müavini Teyyub Cabbarov Xaçmaz şəhərində vətəndaşlarla görüşüb. İyunun 18-də sədr müavini Etibar Məmmədovun Şabran şəhərində keçirdiyi qəbulda isə Şabran və Siyəzən rayonlarından olan vətəndaşlar iştirak ediblər.

Xaçmaz Sukanal Sahəsinin inzibati binasında və Şabran şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbullarda Xaçmaz, Şabran və Siyəzən rayonlarından olan 39 vətəndaşın müraciət və şikayətlərinə baxılıb. Müraciətlər əsasən içməli su təchizatı və kanalizasiya, içməli sudan əziyyət çəkən kəndlərin su təchizatının yaxşılaşdırılması, işə qəbul və digər məsələlərlə bağlı olub.

# Həyata keçiriləcək birgə layihələr ekoturizmin inkişafına böyük töhfə verəcək



İyunun 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın BMT-nin Ümumdünya Turizm Təşkilatının (ÜTT) Baş katibi Zurab Pololikaşvili ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə IDEA və ÜTT arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Anlaşma memorandumu tərəflər arasında gələcək fəaliyyət çərçivəsini və əməkdaşlıq sahələrini müəyyənləşdirir. Sənədə əsasən, hər iki təşkilat turizmin ekoloji dayanıqlığa təsir edən amillərdən biri kimi təşviq edilməsi istiqamətində birgə səylər göstərəcək.

İmzalama mərasimindən sonra Leyla Əliyeva ilə Zurab Pololikaşvili arasında ikitərəfli görüş keçirilib. Görüşdə Leyla Əliyeva ÜTT tərəfindən dünyada turizmin inkişafının əlaqələndirilməsi istiqamətində aparılan fəaliyyəti yüksək qiymətləndirərək, turizm sektorunun inkişafının planetin dayanıqlı gələcəyi üçün əhəmiyyətini vurğulayıb. Leyla Əliyeva zəngin mədəni irsi və müasir infrastrukturu ilə yanaşı, Azərbaycanda bol təbii sərvətlər və rəngarəng coğrafi landşaftın mövcud olmasını qeyd edərək, həyata keçiriləcək birgə layihələrin ölkədə ekoturizmin inkişafına böyük töhfə verəcəyindən əminliyini vurğulayıb.

Zurab Pololikaşvili rəhbərlik etdiyi təşkilat ilə IDEA arasında əməkdaşlığın qurulmasından məmnunluğunu bildirərək, Azərbaycanın cəlbedici turizm məkanı kimi potensialının inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu qeyd edib.

Tərəflər Azərbaycanda və regionda birgə layihələrin həyata keçirilməsi və beynəlxalq tədbirlərin təşkili perspektivlərini müzakirə ediblər.

# Əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb

İyunun 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva ilə ölkəmizdə səfərdə olan BMT Ətraf Mühit Proqramının (UNEP) xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov arasında görüş olub.



AZƏRTAC xəbər verir ki, görüşdə ətraf mühitin mühafizəsi, iqlim dəyişikliyi ilə mübarizə və davamlı inkişaf məsələləri, bununla əlaqədar yerli və regional səviyyədə görülən işlər və irəli sürülən təşəbbüslər, xüsusən də Xəzər dənizinin bioloji resurslarının mühafizəsinə yönəlmiş səylər müzakirə edilib.

Leyla Əliyeva IDEA-nın son illər əldə etdiyi nailiyyətləri, hazırda həyata keçirilən layihələri və gələcək planları haqqında BMT rəsmisinə məlumat verib. Tərəflər həmçinin ətraf mühit və davamlı inkişaf məsələləri üzrə BMT-nin xoşməramlı səfirləri qismində həyata keçirdikləri fəaliyyət və əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

# Neftçaladakı Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının Xəzərə buraxılması mərasimi olub

## Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib









İyunun 17-də Xəzər dənizinin ekoloji mühitinin yaxşılaşdırılması üzrə IDEA İctimai Birliyinin və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlığı çərçivəsində Neftçalada yerləşən Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının suya buraxılması mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və BMT Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov iştirak ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xıllı nərə balıqartırma zavodu 2003-cü ildə istismara verilib. Bu zavod Xəzər regionunda ən iri nərə balıqartırma müəssisəsidir. Burada bölgə, nərə, kələmo və uzunburun kimi nərə cinsli balıq növləri artırılaraq Kür çayının mənsəbinə buraxılır. Zavodun istehsal gücü ildə 15 milyona qədər nərə balıq körpələridir. Ümumi sahəsi 15 hektar olan zavodda 4 nohur, 54 beton hovuz var.

Müəssisə ilə tanışlıqdan sonra Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının suya buraxılması mərasimi oldu.

Mərasimdə iştirak edən BMT Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov jurnalistlərə müsahibəsində dedi: "Hər dəfə Azərbaycana gələndə təəssürat içində oluram. Bu gün mənim üçün daha bir səhifə açılıb. Leyla xanım Əliyeva ekologiya problemi ilə kifayət qədər çoxdan və ciddi məşğul olur. O, aydın başa düşür ki, Yer üzündə ən böyük sərvət insandır. İnsan isə yalnız ekologiyanın normal olduğu yerdə, normal təbii şəraitdə salamat qala bilər. Odur ki, bu işlə məşğul olur. Əlbəttə, bu, Birləşmiş Millətlər Təşkilatında təbiəti mühafizə ilə məşğul olan təşkilatın səfiri kimi məni çox sevindirdi. Bu problemlə getdikcə daha çox məşğul olduğum üçün deyə bilərəm ki, indi bu, ən başlıca məsələdir".

Qeyd edək ki, son onilliklər ərzində Xəzər dənizinin nadir balıq növlərinin populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri, çirklənmə, qaçaqmalçılıq və həddən artıq ovlanma nəticəsində məhvolma təhlükəsi həddinə çatıb. Problemin hərtərəfli həlli məqsədilə IDEA İctimai Birliyi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Böyük Britaniyanın "Mavi Dəniz Fondu" (BLUE) ilə birlikdə müxtəlif mühafizə, bərpa və ictimai maarifləndirmə tədbirləri həyata keçirilir.

# BMT-nin Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu Bakı sessiyası başa çatıb

## Ümumdünya Turizm Təşkilatı Azərbaycanda mərkəz açmaq niyyətindədir

BMT-nin Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyasında 37 ölkədən və 5 beynəlxalq təşkilatdan rəsmi dövlət nümayəndəsi iştirak edib. İki gün ərzində "İrsimizi qoruyaq: sosial, mədəni və ekoloji davamlılıq" başlığı altında keçirilən sessiyada "Turizm və davamlılıq", "Yerli səviyyədə davamlılığın artırılması", "Turizm və daxiletmə: sosial ölçü", "Turizm və mədəni qoruma" mövzularında tematik müzakirələr aparılıb. AZƏRTAC xəbər verir ki, bu fikirləri iyunun 18-də Bakı Konqres Mərkəzində sessiyanın yekunlarına həsr edilən mətbuat konfransında Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev deyib.

"Gələn qonaqları Azərbaycanın mədəni irsi ilə tanış etmək vacib idi. Azərbaycana gələn qonaqlar çox məmnun qalıb. Bu gün axşam onları "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna aparacağıq", - deyə agentliyin sədri vurğulayıb.

O, son illərdə Azərbaycanda turizmin inkişafı üçün atılan addımlar, ölkə xaricində aparılan təbliğat işləri, Azərbaycanın yeni turizm brendi, milli mədəni irsin qorunması üçün görülən tədbirlər barədə məlumat verib.

F.Nağıyev Azərbaycanın işğal olunmuş torpaqlarında mövcud olan mədəni irs nümunələrinin məhv edilməsini, beynəlxalq hüquq normalarının işğalçı Ermənistan tərəfindən kobudcasına pozulması faktını sessiya iştirakçılarının diqqətinə çatdırılıb.

Vurğulanıb ki, Bakıda keçirilən BMT-nin Ümumdünya Turizm Təşkilatının (BMT ÜTT) İcraiyyə Şurasının 110-cu sessiyasında Amerika Birləşmiş Ştatları 23 illik fasilədən sonra yenidən təşkilatda təmsil olunmaq hüququ əldə edib. ABŞ-ın təşkilata üzv olması məsələsinin müzakirəsi üçün ABŞ Dövlət Departamentinin Beynəlxalq Təşkilatlar üzrə dövlət katibinin müavini Kevin Moley, Ağ Evin Aparat rəhbərinin baş müavini Emma Katerine Doylin rəhbərlik etdiyi yüksəksəviyyəli nümayəndə heyəti Bakıya gəlib.

Xüsusi olaraq qeyd olunub ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın BMT-nin Ümumdünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili ilə görüşü olub. Görüşdə IDEA və ÜTT arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Anlaşma Memorandumu tərəflər arasında gələcək fəaliyyət çərçivəsini və əməkdaşlıq sahələrini müəyyənləşdirir. Sənədə əsasən, hər iki təşkilat turizmin ekoloji dayanıqlılığa təsir edən amillərdən biri kimi təşviq edilməsi istiqamətində birgə səylər göstərəcək.

Bakı sessiyasının işini yüksək qiymətləndirən Ümumdünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili təmsil etdiyi təşkilatın yaxın vaxtlarda Azərbaycanda mərkəz açmaq niyyətində olduğunu söyləyib. O, həmçinin il ərzində dünyada 10 mərkəz açmağı planlaşdırdıqlarını nəzərə çatdırıb.

Sonra jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

# Bakıda "İnvaziv diaqnostika və müalicə: bu gündən sabaha" adlı beynəlxalq konfrans keçirilib

Milli Onkologiya Mərkəzində (MOM) 15 İyun - Milli Qurtuluş Günü, həmçinin MOM-un nəzdində yaradılmış İnvaziv Diaqnostika və Müalicə Şöbəsinin 5 illiyinə həsr olunmuş "İnvaziv diaqnostika və müalicə: bu gündən sabaha" adlı beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə yerli həkimlərlə yanaşı, Türkiyə və Rusiyadan dəvət olunmuş tibb mütəxəssisləri - Türkiyənin Koç Universiteti Xəstəxanasının professoru Çil Barbaros Erhan, dosent Aslan Fatih, Rusiyanın N.N.Petrov adına Milli Onkoloji Tibbi Tədqiqat Mərkəzinin Endoskopiya şöbəsinin rəhbəri Oleq Tkaçenko bu sahədə ən son elmi və praktiki təcrübələrini bölüşüblər. Konfransda həkim və mütəxəssislərlə tibbin bu sahəsinin ən aktual məsələləri müzakirə olunub və cərrahi əməliyyat otaqlarından bir sıra əməliyyatlar da birbaşa yayımlanıb.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başlayıb.

Konfransı açan Milli Onkologiya Mərkəzinin baş direktorunun müavini, tibb üzrə fəlsəfə doktoru Fuad Quliyev MOM-un baş direktoru, akademik Cəmil Əliyevin salamlarını çatdırıb. O, onkologiya elminin müasir dövrdə inkişafı və tədbirin əsas məqsədi barədə məlumat verib. Diqqətə çatdırılıb ki, konfransın əsas məqsədi tədbir iştirakçılarına inkişafda olan Azərbaycan səhiyyəsinin uğurlarından bəhs etmək, Milli Onkologiya Mərkəzinin İnvaziv Diaqnostika və Müalicə Şöbəsində icra olunan diaqnostik yeniliklər, invaziv müdaxilələr barədə məlumat verməkdir.

Konfransda Ruslan Məmmədovun "Endoskopik ultrasəs müayinəsinin günümüzdə aktuallığı", Gülüstan Babayevanın "Xroniki pankreatitlərin diaqnostikasında yeniliklər", Aslan Fatihin "Advanced Endoscopy-ESD, STER, POEM, POET", Çil Barbaros Erhanın "Hepatosellular karsinomada transarterial lokoregional müalicələr", Oleq Tkaçenkonun "Submukozal tunel endoskopik rezeksiya, anastomoz çatışmazlığı zamanı endoskopik yanaşma", Eldar Quliyevin "MOM-da qaraciyər törəmələrində invaziv müalicə taktikaları", Cavid Əhmədovun "Qastrik varikoz genişlənmələrdə invaziv radiologiyanın yeri", Ruslan Əliyevin "Uşaqlıq qanaxmalarında invaziv müdaxilələrin rolu", Fərid Quliyevin "MOM-da icra olunan invaziv endoskopik müalicə üsulları", Elgün Həziyevin "Onkoloji xəstələrdə kreatinin yüksəlməsinə yanaşma" mövzularında məruzələri dinlənilib və müzakirələr aparılıb.

Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Elmi-Tibbi Şura tərəfindən akkreditasiyadan keçib və 8 kredit vahidi verilib. Konfransın sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

# Azərbaycan dəniz nəqliyyatı sahəsində beynəlxalq əməkdaşlığı genişləndirir






**Baş qərargahı Londonda yerləşən BMT-nin nüfuzlu orqanı olan Beynəlxalq Dəniz Təşkilatının (BDT) Dəniz Təhlükəsizliyi Komitəsinin 101-ci sessiyası işini yekunlaşdırıb. Qeyd edək ki, tədbirdə Azərbaycanı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin direktoru Qüdrət Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.**

İclasın ilk iş günü Beynəlxalq Dəniz Təşkilatının Baş katibi Kitak Lim gündəlikdə duran məsələlər barədə fikir bildirib.

"Dəniz cəmiyyətində qadınların səlahiyyətləndirilməsi" mövzusu Baş katib Kitak Limin təklifi ilə öz təsdiqini tapıb. Qadınların dünyada dəniz sahəsində fəaliyyətinin genişləndirilməsi, səlahiyyətlərinin artırılmasına dəstək verilməsi mühüm əhəmiyyət kəsb edir deyən Kitak Lim vurğulayıb ki, dəniz nəqliyyatı sahəsində gender bərabərliyinin qorunmasına, qadın və qızların səlahiyyətləndirilməsinə nail olmaq lazımdır.

Sessiyada Beynəlxalq Dəniz Təşkilatı qurumlarının qərarları müzakirə olunub, əsas hüquqi sənədlərə dəyişikliklər nəzərdən keçirilib. Sessiyada, həmçinin dənizdə mühafizənin gücləndirilməsi istiqamətində görülən tədbirlər, yeni gəmi konstruksiya və standartları, qütb sularında üzən "SOLAS" Konvensiyasının tətbiq olunmadığı gəmilərə dair təhlükəsizlik tədbirləri, yanacaq istifadəsinə uyğun olaraq gəmilərin təhlükəsizliyinin yüksəldilməsinə dair əlavə tədbirlərin təkmilləşdirilməsi, konteynerlərin və yüklərin daşınması, çirklənmənin qarşısının alınması və cavab tədbirləri müzakirə edilib. Naviqasiya, kommunikasiya, axtarış və xilasetmə, gəmi dizaynı və konstruksiyası, gəmi sistemləri və avadanlıqları, yeni tədbirlərin tətbiq olunması üçün bacarıqların artırılması, formal mühafizə qiymətləndirilməsi, beynəlxalq ictimaiyyəti dərindən narahat edən mühüm gəmilərə qarşı silahlı basqın və quldurluq halları, dəniz vasitəsilə təhlükəli qarışıq miqrasiya halları, komitə metodunun tətbiqi məsələləri də sessiyada müzakirə olunub. Sessiyanın yekununda 2020-ci il üçün Brad Groves (Avstraliya) yenidən katib və Juan Carlos Cubusino (Argentina) katib müavini seçilib.

Dövlət Dəniz Agentliyinin direktoru Qüdrət Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti səfər çərçivəsində Beynəlxalq Dəniz Təşkilatının rəsmiləri, sessiyaya qatılmış bir sıra üzv dövlətlərin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib.

Azərbaycan nümayəndə heyətinin Beynəlxalq Dəniz Təşkilatının rəsmiləri, bir sıra üzv dövlətlərin nümayəndə heyətləri ilə keçirdiyi ikitərəfli görüşlərdə son illərdə Prezident İlham Əliyevin düşünülmüş, çevik və qətiyyətli iqtisadi siyasəti sayəsində Azərbaycanın beynəlxalq aləmdə yeni-yeni uğurlara imza atdığı, iqtisadiyyatımızın bütün sahələri kimi dəniz nəqliyyatı sahəsinin ölkəmizdə inkişaf etdirilməsinin diqqət mərkəzində olduğu vurğulanıb. Qarşılıqlı əməkdaşlığın daha səmərəli və effektiv həyata keçirilməsi, habelə dəniz nəqliyyatı sahəsi ilə bağlı ölkəmiz üçün əhəmiyyətli olan bir sıra mühüm məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, əlverişli coğrafi mövqeyə malik olan müstəqil Azərbaycan son 16 ildə etibarlı nəqliyyat dəhlizinin yaradılması istiqamətində mühüm işlər görür. Dəniz nəqliyyatına böyük investisiyalar yatırmaqla infrastrukturunu möhkəmləndirən ölkəmiz regionda əlverişli logistik bağlantı yaradır. Xüsusən də dəniz nəqliyyatı sisteminin müasirləşdirilməsi Azərbaycanı Avrasiya məkanının ən mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevirib.

Azərbaycan bu gün Xəzər hövzəsində ən böyük ticarət donanmalarından birinə sahibdir. Hazırda 200-dən çox gəmi Xəzər sularında yükdaşımalar aparır. Ümumiyyətlə, dünya ticarət məhsullarının 80 faizdən çox hissəsinin təhlükəsiz, maddi cəhətdən sərfəli və ətraf mühitə daha az mənfi təsir göstərməklə daşınması məhz dəniz nəqliyyatı vasitəsilə həyata keçirilir. Dəniz nəqliyyatının inkişafı ilə əlaqədar bütün dünya dövlətləri tərəfindən qəbul olunan və riayət edilən, dənizçilik münasibətlərini tənzimləyən tələblərə və normalara daim ehtiyac duyulub. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə də etibarlı təminat verir.

Prezident İlham Əliyevin bu sahədə apardığı məqsədyönlü islahatlar nəticəsində dəniz nəqliyyatı yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülmüş işlər də xüsusi qeyd edilməlidir. Azərbaycanın dəniz nəqliyyatı sahəsində qazandığı nailiyyətlər ölkəmizə səfər edən müstəqil beynəlxalq ekspertlər, habelə Beynəlxalq Dəniz Təşkilatı və Avropa Dəniz Təhlükəsizliyi Agentliyi tərəfindən müsbət dəyərləndirilir.

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*

Milli-mənəvi dəyərlər

# Dünyaya nümunə olan Azərbaycan reallığı

Əvvəli 1-ci səh.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə dini etiqad azadlığının, multimədəni harmoniyanın əsas təminatçısı və himayədarı rolunda çıxış edir. Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasətinin əsasını təşkil edərək sülhə, milli vəhdətə, mədəniyyətlərin dialoquna xidmət göstərir.

Bu il mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında açdığı iftar süfrəsində Prezident İlham Əliyev bunu nəzərdə tutaraq dedi: "Ölkəmizdə milli həmrəylik, vətəndaş həmrəyliyi var. Konstitusiyaya görə, din dövlətdən ayrı olsa da, əslində din və dövlət bir-birinin yanındadır. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycanın uğurlu inkişafı dövlət-din münasibətlərinin uğurlu inkişafından böyük dərəcədə asılıdır".

Məhz bu münasibət, həyata keçirilən bu siyasət sayəsində Azərbaycanda dini durumun sabitliyi, dini tolerantlıq mühiti qorunur. Ölkəmizin uğurlarını gözü götürməyən qüvvələrin dini müstəvidə pozuculuq niyyətlərinin qarşısı alınır. Azərbaycan bu sahədə apardığı dövlət siyasəti ilə bir çox müsəlman ölkələri üçün də parlaq nümunə yaradır. Dünyada mədəniyyətlərarası dialoq, multikulturalizm, tolerantlıq ideyalarının təşviqinə xidmət göstərir. Ölkəmizdə vaxtaşırı olaraq dini mövzularda beynəlxalq konfranslar, görüşlər təşkil olunur.

Dini icmaların fəaliyyəti qanunvericiliyə uyğun qurulur, vətəndaşlar arasında dini maarifləndirmə işləri aparılır. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, milli-mənəvi irsimizin təbliğində, mədəniyyətlərarası dialoq, multikulturalizm kimi qlobal təşəbbüslərin təşviqində tanınmış din xadimlərimiz də yaxından iştirak edir. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam həmrəyliyi ili" elan olunması da Azərbaycan dövlətinin milli-mənəvi dəyərlərə, fərqli mədəniyyətlər arasında təmasa verdiyi önəmin ifadəsidir. Ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədə tənzimlənir. Bütün dünya bu reallığı görür və bundan nümunə götürməyə çalışır.

Bu gün Azərbaycan dünya miqyasında dinlərarası dialoqun aparılması üçün bir mərkəzə çevrilib. Təsadüfi deyil ki, çoxsaylı beynəlxalq tədbirlər, qlobal humanitar forumlar Azərbaycan rəhbərliyinin təşəbbüsü ilə ölkəmizdə keçirilir.

## Əsl islam

Azərbaycan dövləti bu istiqamətdə həyata keçirdiyi siyasətlə islam dinini də dünyaya öz məzmununda təqdim edir. Onu məkrli qüvvələrin hücumlarından, islami dəyərlərə qarşı yönələn təhdidlərdən qorumağa çalışır. İslamın sülh, inkişaf, sevgi, mərhəmət dini olduğunu Azərbaycan dövlətinin nümunəsində dünyaya təqdim edir. Prezident İlham Əliyevin bununla bağlı mövqeyi birmənalıdır: "Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq. İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Biz öz dinimizə bağlıyıq. Biz dünyada islam mədəniyyətini təbliğ edirik. Dünyada çoxsaylı konfranslar, sərgilər, təqdimatlar keçirilir, Azərbaycan həqiqətləri, islam mədəniyyətinin həqiqətləri dünya ictimaiyyətinə təqdim edilir. Biz islamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya təqdim edirik və bu fəaliyyəti bundan sonra da davam etdirəcəyik".

Böyük tarixə malik məbədlərimizin bərpası sahəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl tədbirlər həyata keçirilir. Son illər tarixi mədəniyyət abidələrinin, məscid və ziyarətgahların, yəhudi və xristian məbədlərinin bərpası və təmiri Azərbaycan gerçəkliyini əks etdirən sağlam dini-mənəvi durumun göstəricisidir. İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildiyi 2003-cü ildən indiyədək ölkədə dövlətin dəstəyi ilə 250-dən çox məscid tikilmiş və ya bərpa edilmişdir. Xalqımız üçün böyük dəyər kəsb edən, Cənubi Qafqazın ən böyük məscidi olan Heydər məscidi, Bibiheybət, Təzəpir, Əjdərbəy, Gəncə "İmamzadə" Dini Kompleksi və s. kimi abidələrimiz bu sıraya daxildir.

Azərbaycan Ordusunun 2016-cı ildəki Aprel zəfəri sayəsində Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası zamanı kənddə Şuşadakı Gövhər Ağa məscidinin bənzəri olan məscidin inşası da ölkə başçısının milli-mənəvi dəyərlərimizə yüksək ehtiramının təcəssümüdür. Təsadüfi deyil ki, 2018-ci ilin aprelində xalqımızın yekdil dəstəyi ilə növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin iştirak etdiyi ilk rəsmi tədbir də dövlət rəhbərimizin təşəbbüsü ilə inşa edilmiş Hacı Cavad məscidinin açılışı olmuşdu. Mayın 23-də iftar mərasimindəki çıxışı zamanı Azərbaycan Prezidenti bu faktı xüsusi xatırlatdı: "Bildiyiniz kimi, keçən il prezident seçkilərindən sonra iştirak etdiyim birinci tədbir Hacı Cavad məscidinin yeni binasının açılışı olmuşdur. Bu da təsadüfi deyil. Mən seçkilərdən sonra istənilən yerə gedə bilərdim. Məhz Hacı Cavad məscidinin yeni binasının açılışını birinci növbədə qeyd etməyimiz dövlət-din münasibətlərimizə, islam dininə göstərdiyimiz hörmətdir".

## Tolerantlıq ünvanı

Tolerantlıq ta qədim zamanlardan bu günədək insanlarda bir-birinin fərqli baxışlarına, fikir və düşüncələrinə dözümlü yanaşma mədəniyyəti kimi formalaşmağa başlamış, zaman keçdikcə hər bir cəmiyyətdə sivil harmoniyanın təmin olunmasında həlledici amilə çevrilmişdir. Bir qayda olaraq təkcə mənəvi deyil, həm də siyasi və hüquqi tələbat kimi özünü göstərən tolerantlıq insan hüquq və azadlıqlarının etirafı əsasında formalaşmış düşüncə sərbəstliyidir. O, insanın təbii - başlanğıc və sonradan qazanılmış hüquqlarının pozulmasına heç bir halda bəraət qazandırmır, eyni zamanda hər kəsin qanun qarşısında bərabərliyi prinsipini inkar etmir. Məhz dözümlü yanaşma sayəsində cəmiyyətdə sivil birgəyaşayış normaları, habelə fikir və əqidə müxtəlifliyi, siyasi plüralizm təmin olunur, demokratik ideyaların praktik şəkildə gerçəkləşməsinə imkan yaranır.

Qloballaşan dünyada tolerantlıq bir tərəfdən bütün insanların qanun qarşısında bərabərliyini və məsuliyyətini önə çəkməklə hüquqi, digər tərəfdən yüksək əxlaqi keyfiyyətlər, mədəniyyət, dözümlülük, geniş savad və dünyagörüş aspektlərini də ifadə etməklə mənəvi məzmun daşıyır. Lakin təəssüf ki, dərisinin rənginə, irqinə, cinsinə, dilinə, dininə, siyasi əqidəsinə, milli, sosial mənşəyinə görə diskriminasiya hallarına müasir dövrdə də geniş rast gəlinir.

Azərbaycan 70 il sovet imperiyasının tərkibində yaşamalı olsa da, bu dövrdə mərkəzin qondarma "vahid sovet xalqı" formalaşdırmaq məqsədinə xidmət edən beynəlmiləlçilik ideologiyası digər respublikalarda olduğu kimi, Azərbaycanda da etnik tolerantlığın güclənməsinə təkan vermişdir. Lakin ateizm siyasəti yürüdən imperiya ayrı-ayrı xalqların mental dəyərlərinin, mədəniyyətinin, dininin inkişafına yol verməmiş, milli identikliyə qarşı dözümsüzlük nümayiş etdirmişdir. Həmin illərdə respublikada məscidlər bağlanmış, din xadimləri sıxışdırılmış, islami dəyərlərin yayılmasına qarşı sərt tədbirlər həyata keçirilmişdir. Bununla belə, 70 illik totalitar sovet rejimi xalqın tolerantlıq düşüncəsinə hakim kəsilə bilməmiş, onu öz milli-mənəvi, dini dəyərlərindən, adət-ənənələrindən ayıra bilməmişdir. Onu da xüsusi vurğulamaq lazımdır ki, istər 1970-1980-ci illərdə, istərsə də müstəqillik illərində məhz ulu öndər Heydər Əliyevin himayəsi altında onlarla məscid tarixi abidə adı altında qorunub saxlanılmış, əsaslı təmir edilmiş, xalqa qaytarılmışdır.

Bu gün Azərbaycan Prezidentinin cəmiyyətin mühüm təbəqəsi olan din xadimləri ilə mütəmadi görüşləri, onların mənəvi ehtiyaclarına həssaslıqla yanaşması, müxtəlif dini bayram və mərasimlərdə şəxsən iştirak etməsi cəmiyyətdə etnik-dini dözümlülüyün təbliğində mühüm rol oynayır. Dövlətin bu sahəyə diqqət və qayğısı Azərbaycandakı bütün mövcud milli-etnik qrupları, dini-mənəvi təşkilatları əhatə edir. Hazırda respublikamızda dünya dinləri ənənəvi olaraq qarşılıqlı etimad və əmin-amanlıq şəraitində fəaliyyət göstərir, yüzlərlə islam və qeyri-islam dini icmaları öz etiqadlarını azad və sərbəst şəkildə icra edirlər. Son illərdə ölkədə 500-dən artıq dini icmanın dövlət qeydiyyatından keçməsi də tolerantlığın bariz təcəssümü sayıla bilər.

Əslində, bu gün dünyada mövcud olan problemlərin böyük əksəriyyəti də məhz tolerantlıq prinsipinə riayət olunmamasından irəli gəlir. Bəzi hallarda terrora, qarşıdurmalara, münaqişələrə rəvac verən başlıca amillərdən biri də milli-etnik və dini tolerantlığın lazımi səviyyədə inkişaf etməməsidir. Ölkə başçısı bütün beynəlxalq forumlardakı çıxışlarında bu məsələni hər dəfə xüsusi vurğulayır.

Roma Papası Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə ölkəmizdə dini tolerantlıq sahəsində mövcud olan vəziyyəti yüksək dəyərləndirmişdir. İnsan hüquqları üzrə ixtisaslaşmış beynəlxalq təşkilatların hesabatlarında Azərbaycanda müxtəlif dini sivilizasiyalar arasındakı münasibətlərin çox yaxşı olduğu, dini azlıqların maraq və mənafelərinin qorunduğu razılıqla bildirilir. Respublikamızda rusların, yəhudilərin və digər milli azlıqların öz ana dillərində təhsil alması üçün çoxsaylı məktəblərin mövcudluğu da tolerantlığın əyani göstəricisidir. Bütün bunların nəticəsi olaraq respublikamız bu gün regionda iqtisadi əməkdaşlıq, dialoq və dini tolerantlıq mərkəzi kimi tanınır.

Milli-mənəvi irsimizin qorunması, təbliği, tədqiqi və gələcək nəsillərə çatdırılmasında Heydər Əliyev Fondu da tarixi xidmətlər göstərir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu çoxşaxəli fəaliyyəti ilə milli-mənəvi dəyərlərimizin yorulmaz təbliğatçısına və etibarlı müdafiəçisinə çevrilmişdir. Fondun həyata keçirdiyi çoxsaylı layihələrdən olan "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində istər ölkə daxilində, istərsə də ölkə xaricində bir çox dini, tarixi abidələrin yenidən qurulması və bərpası Mehriban xanımın keçmişimizə, bugünümüzə və gələcəyimizə dəyərli töhfələridir.

Bu gün ölkəmizdə milli-mənəvi dəyərlərin təbliği istiqamətində sistemli iş aparılır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu fəaliyyət göstərir və müxtəlif layihələr həyata keçirir. Ölkəmizdə mükəmməl dini təhsil üçün lazımi imkanlar yaradılır, müvafiq təhsil sistemi təkmilləşdirilir. Bütün bunların isə bir məqsədi var: dəyərlərimizi qorumaq, onları gələcək nəsillərə düzgün çatdırmaq və ölkəmizin bu dəyərlər işığında daha da möhkəmlənməsinə, inkişafına nail olmaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Milli Olimpiya Komitəsində "İdmançılar" İctimai Birliyinin təqdimatı keçirilib





Yeni yaradılmış "İdmançılar" İctimai Birliyinin (İİB) iyunun 18-də Milli Olimpiya Komitəsində təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə idman ictimaiyyətinin nümayəndələri, Olimpiya çempionları, klub və cəmiyyətlərin rəhbərləri iştirak ediblər.

Əvvəlcə Azərbaycanda idmanın inkişafından bəhs edən videoçarx nümayiş olunub.

Gənclər və İdman Nazirliyinin sektor müdiri Aydın Məmmədov tədbirdə çıxış edərək ölkəmizdə idmana göstərilən dövlət qayğısı nəticəsində bu sahənin sürətlə inkişaf etdiyini vurğulayıb. Azərbaycan idmançılarının beynəlxalq turnirlərdə qazandıqları nailiyyətlərin sayının ildən-ilə artdığını vurğulayan A.Məmmədov bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bədən tərbiyəsi və idman siyasəti Prezident İlham Əliyevin rəhbərliyi dövründə uğurla davam və inkişaf etdirilir. İdmançılarımız beynəlxalq arenalarda keçirilən yarışlarda yüksək nailiyyətlər əldə edirlər. İdman cəmiyyətləri, klub və birliklər də bu inkişafa töhfə verirlər. O, "İdmançılar" İctimai Birliyinin ölkəmizdə idmanın inkişafına mühüm töhfə verəcəyinə əminliyini bildirib.

İİB-in baş katibi Fərhad Acalov qeyd edib ki, birliyin təsis olunmasının əsas məqsədi dünyada idman dövləti kimi tanınan Azərbaycanda bu sahənin inkişafına töhfə verməkdir. Azərbaycanda idman öz inkişafının ən yüksək mərhələsinə qədəm qoyub. Bu sahənin inkişafı istiqamətində görülən işlər fasiləsiz davam etdirilir".

Olimpiya çempionu Namiq Abdullayev və başqaları çıxışlarında qarşıda duran vəzifələrdən danışıb, İctimai Birliyə fəaliyyətində uğurlar arzulayıblar.

"İdmançılar" İctimai Birliyinin prezidenti karate üzrə beşqat dünya çempionu Rafael Ağayev, vitse-prezidenti Olimpiya Oyunlarının mükafatçısı, üçqat dünya çempionu Hacı Əliyev, baş katibi yeniyetmələr arasında dünya çempionu Fərhad Acalovdur.

# II Avropa Oyunlarında iştirak edəcək Azərbaycan idmançıları Minskə yola salınıblar

İyunun 21-30-da Minskdə keçiriləcək II Avropa Oyunlarında iştirak edəcək Azərbaycan idmançıları və ölkəmizin nümayəndə heyəti iyunun 18-də Belarusa yola salınıb. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda komandamızı ölkəmizin idman ictimaiyyətinin nümayəndələri, idmansevərlər, KİV təmsilçiləri yola salıblar.



Atletlərimiz mötəbər yarışla bağlı fikirlərini bölüşərək Azərbaycan dövlətinin yüksək diqqət və qayğısından bəhs edib, II Avropa Oyunlarına böyük həvəslə yollandıqlarını vurğulayıb, göstərilən etimadı layiqincə doğruldacaqlarına, "Minsk 2019"dan qızıl medallarla qayıdacaqlarına söz veriblər.

Azərbaycanı "Minsk 2019"da idmanın 11 növü üzrə 82 atlet təmsil edəcək.

Oyunlar zamanı Belarus paytaxtına Avropanın 50 ölkəsindən 4 minə yaxın idmançının, 2 minə yaxın məşqçi və xidmət heyətinin gələcəyi gözlənilir. Oyunlarda idmanın 15 növü üzrə 200 dəst medal uğrunda mübarizə aparılacaq. İdmanın 8 növü üzrə yarışlar 2020-ci ildə Tokioda keçiriləcək XXXII Yay Olimpiya Oyunlarına təsnifat xarakteri daşıyacaq. Boks və cüdo yarışları Avropa çempionatları səviyyəsində keçiriləcək.

Yarışlar idman üzrə 650 beynəlxalq, həmçinin 410 yerli hakim tərəfindən idarə olunacaq. Minskə xarici KİV-in mindən artıq nümayəndəsi, idmanın müxtəlif növləri üzrə Avropa federasiyalarının 100-dən çox prezidenti və baş katibi, Avropa ölkələrinin idman nazirləri, EOC-un mənzil-qərargahının 250-dən çox nümayəndəsi və işçisi, Avropa MOK-larının prezidentləri və baş katibləri, Avropa MOK-un 200-dən çox qonağı, həmçinin Avropa dövlətlərinin prezidentləri, Baş nazirləri və yüksəkvəzifəli şəxsləri gələcəklər. Tədbirdə 8 minə yaxın könüllü fəaliyyət göstərəcək.

2019-cu ilin II Avropa Oyunlarının yarışları Minskin ən iri idman qurğularında, o cümlədən "Dinamo", "Minsk-arena", "Çijovka-arena" stadionlarında keçiriləcək.

Oyunların iştirakçılarının və xarici azarkeşlərin qonaqpərvərliklə qarşılanması və mənzil başına rahat çatması məsələlərində Belarus paytaxtının turizm sahəsi, mehmanxana və nəqliyyat infrastrukturu tam şəkildə cəlb olunub. Bununla əlaqədar nəqliyyat xidmətinin kompleks planı hazırlanır. Planda şəhərin gündəlik tələbatı da nəzərə alınacaq. Xatırladaq ki, I Avropa Oyunları 2015-ci il iyunun 12-28-də Bakıda keçirilib. "Bakı-2015"də Azərbaycan idmançıları 56 medal (21-15-20) qazanaraq komanda hesabında Rusiyadan sonra ikinci pillədə yer alıblar.


Təkrar

## "Azərişıq" ASC müxtəlif mal-materialların satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 3 (üç) LOT üzrə keçirilir:

LOT-1 Müxtəlif kabellərin satın alınması - 400 manat
LOT-2 Müxtəlif muftaların satın alınması - 400 manat
LOT-3 Müxtəlif nəqliyyat sərfiyyatı mallarının satın alınması - 400 manat

"Azərişıq" ASC
Hesab №: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab №: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Zaur Abdullayev, telefon: 440-39-93 daxili (23-32).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 10 iyul 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 17 iyul 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 18 iyul 2019-cu il saat 16:00-da Ələsgər Qayıbov küç., 8 ünvanında, "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI


# Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan və snayper tüfənglərindən istifadə etməklə atəşkəs rejimini pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Koxanəbi, Gədəbəy rayonunun Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Acarlı, Novruzlu, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

Azercell

## abunəçilərinin nəzərinə

19-20 iyun 2019-cu il tarixləri ərzində Bakı şəhəri, Bəsti Bağırova küçəsi, 2 ünvanında yerləşən Azercell Müştəri Xidmətləri Mərkəzi daha keyfiyyətli və operativ xidmət göstərmək məqsədilə aparılan təmir işləri ilə əlaqədar müvəqqəti olaraq çalışmayacaq. Bununla əlaqədar olaraq "Azercell" xidmətlərindən istifadə edən abunəçilərə ehtiyac yarandığı halda *1111 qısa nömrəsinə və yaxud Bakı şəhəri üzrə aşağıdakı linkdə ünvanları qeyd olunan digər Müştəri Xidmətləri və "Azercell Ekspres" ofislərinə müraciət etmək tövsiyə edilir:

**www.azercell.com/az/contacts/office/**


# "Azercell" yeni nəsil texnologiyaların tətbiqinə hazırdır

Məqsədi abunəçilərin işini asanlaşdırmaq və rəqəmsallaşdırmaq olan "Azercell" şirkəti ölkənin telekommunikasiya sektorunda 49% payla lider mobil operator mövqeyində qərarlaşıb. Şirkət ölkədə telekommunikasiyanın inkişafına ötən il 59,5 milyon ABŞ dolları, fəaliyyət göstərdiyi 22 il ərzində isə 1 milyard 527 milyon ABŞ dollarından artıq sərmayə yatırıb. 2018-ci ildə insan qaynaqlarının inkişafına 880 min ABŞ dollarına yaxın, sosial layihələrə isə 266 000 ABŞ dollarından çox vəsait xərcləyib.

İl ərzində şirkətin yeni sərmayələri nəticəsində 4G istifadəçilərinin sayı 3 dəfə artıb. 4G-nin əhatə etdiyi coğrafi ərazidə 61,4 faiz, əhali sayında 86,2 faiz artım qeydə alınmışdır. Günlük 4G internet istifadəsində müşahidə olunan artım 49,6 faiz təşkil edib. 4G üzərindən sürətli mobil internetdən faydalana biləcək insanların sayının artması üçün şirkət il boyu müştərilərə yeni və əlverişli telefon kampaniyaları təqdim edib. Nəticədə müştərilərinin 60 faizdən çoxu smartfon istifadəçisinə çevrilib. "Azercell"in ötən ildə ümumi mobil internet trafiki 55 faiz, LTE mobil trafiki 199 faiz artmışdır. Hazırda regionlarda şəbəkənin genişləndirilməsi üzərində fəal iş gedir. Mart ayında rayon mərkəzlərində 4G şəbəkəsi təmin edilib. Bu müddət ərzində ümumilikdə 770 4G stansiyası quraşdırılıb. 4G şəbəkəsinin genişləndirilməsi şirkətin bu gün də prioritet fəaliyyət istiqamətlərindən biri olaraq qalır. Bu planın 2019-cu ilin III rübündə yerinə yetirilməsi nəzərdə tutulub.

Ölkədaxili şəbəkənin genişləndirilməsi ilə yanaşı, "Azercell" ötən il rominq üzrə 19 yeni ölkə ilə saziş bağlayıb və lider operator abunəçilərinə 50 ölkədə fəaliyyət göstərən 80 operatorun şəbəkəsində istifadəni nəzərdə tutan xüsusi internet paketləri təqdim edib.

Şirkət həmçinin Bakı Metropolitenində mobil rabitənin keyfiyyətinin artırılması istiqamətində müvafiq tədbirlər görür. Birinci mərhələdə bu il daha yüksək sıxlıq müşahidə edilən stansiyalar 4G şəbəkəsi ilə əhatə ediləcək. Gələn il isə rabitə yalnız platformalarda deyil, tunellərdə də daha sürətli olacaq. Bununla yanaşı, gələcəyin texnologiyası olan 5G şəbəkəsinin qurulması üzrə də fəal danışıqlar gedir, texniki avadanlığın xüsusiyyətləri müəyyən edilir. Ən yaxşı model seçildikdən sonra şirkət pilot layihəni həyata keçirməyə başlayacaq.

***"Azərbaycan"***

# İşğal edilmiş ərazilərimizdə keçirilən təlimlər tam nəzarətimiz altındadır

Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin iyunun 17-də başladığı "genişmiqyaslı" hərbi təlimlər Ordumuzun ön xətt bölmələri tərəfindən xüsusi müşahidə vasitələri və cihazları ilə ciddi izlənilir və tam nəzarətdə saxlanılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin AZƏRTAC-a daxil olan məlumatında bildirilib: "Dəfələrlə olduğu kimi, qarşı tərəf bu dəfə də cüzi sayda şəxsi heyət və texnikanı cəlb etməklə keçirdiyi məşğələni "genişmiqyaslı" təlim kimi təqdim etməyə çalışır. Düşmən tərəfinin təlimlərə guya 10 min şəxsi heyət və çoxlu sayda döyüş texnikası cəlb etməsi barədə yaydığı məlumatın tam əksinə, təqdim edilən videodan da görünür ki, ermənilər həmişə olduğu kimi yenə də özünəməxsus saxtakarlıq etməklə öz ictimaiyyətini aldadırlar".

# Ermənistan rəhbərliyi mövqeyindəki qeyri-müəyyənliyə son qoymalıdır

Son zamanlar Ermənistan rəsmiləri bu ölkənin işğalçı siyasətini açıq bəyan edən çıxışları və hərəkətləri ilə gündəmə gəlir. Ermənistanın müdafiə naziri Azərbaycan hərbi qulluqçusunu qətlə yetirənləri şəxsən mükafatlandırır. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Xarici İşlər Nazirliyi "Belə bir şəraitdə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin qarşıdan gələn Vaşınqton görüşündən nə gözləmək olar" sualına aydınlıq gətirib.

Nazirliyin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib: "Ermənistanın elə özü münaqişənin guya "Azərbaycanla Dağlıq Qarabağ arasında olması" rəvayətini yox edir. Bu ölkənin müdafiə nazirinin son hərəkətləri Ermənistanın təcavüzkar siyasətini növbəti dəfə təsdiq edir. Məhz buna görə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar işğalçı Ermənistanla əraziləri işğal olunan Azərbaycan arasında aparılır.

Münaqişənin həlli üzrə danışıqların mövzusuna gəldikdə, hər zaman qeyd etmişik və bir daha təkrar etmək istərdik ki, Azərbaycanın işğal olunmuş ərazilərinin işğalçı qüvvələrdən boşaldılması və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması müzakirələrin əsas mahiyyətini təşkil edir. ATƏT-in Minsk qrupunun 9 mart 2019-cu il tarixli bəyanatında müzakirələrin əsas prinsip və elementlərinə aydınlıq gətirilir. Əlbəttə, danışıqlar eyni çərçivədə və mövcud zəmin əsasında davam etdirilməlidir. Bundan öncəki görüşlərdə əldə edilmiş razılıqların, xüsusilə də Minsk qrupu həmsədrlərinin təklif etdiyi kimi, iki ölkə əhalisinin sülhə hazırlanması istiqamətində səylər davam etdirilməlidir, çünki bu, prosesin irəli aparılması baxımından vacibdir.

Vaşınqton görüşündən gözləntiyə gəldikdə isə, hər bir görüşdən gözlənti, əlbəttə, substantiv danışıqlarla prosesin irəli aparılmasıdır. Xarici işlər nazirlərinin Moskva görüşünün davamı olaraq Vaşınqton görüşündə, ümid edirik ki, tərəflər daha konkret nəticələr əldə edəcəklər. Həmçinin, fikrimizcə, Ermənistan rəhbərliyinin mövqeyindəki qeyri-müəyyənliyə son qoyulmalıdır. Yalnız aydın mövqe, qətiyyət və siyasi iradə münaqişənin, Ermənistan tərəfinin hər zaman dediyi kimi, "eksklüziv olaraq sülh yolu ilə həllinə" töhfə verə bilər".

# "Bu, dalana aparan yoldur"

Ermənistan Müdafiə Nazirliyi Dağlıq Qarabağda 10 min silahlı qüvvənin iştirakı ilə hərbi təlimlər keçirdiyini bəyan edib. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Xarici İşlər Nazirliyi bu məsələyə münasibət bildirib.

Nazirliyin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın açıqlamasında deyilir: "Ermənistanda müharibə tərəfdarlarının qələbə çaldığına inanmaq istəməzdim. Çünki bu, dalana aparan bir yoldur. Xüsusilə də ATƏT-in Minsk qrupunun həmsədrlərinin təklifi əsasında iki ölkənin xarici işlər nazirlərinin Vaşinqtonda keçiriləcək görüşü ərəfəsində Ermənistan tərəfinin bu addımları anlaşılmazdır.

Həqiqətən, Ermənistan rəhbərliyinin məntiqini anlamaq çətindir. Bir tərəfdən müdafiə naziri Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində 10 min hərbi qulluqçunun iştirakı ilə hərbi təlimlərin keçiriləcəyini bəyan edir, digər tərəfdən isə bu ölkənin xarici işlər naziri Vaşinqtonda münaqişənin sülh yolu ilə həlli üzrə danışıqlar aparmağa hazırlaşır. Belə olan halda Ermənistan rəhbərliyi öz hərəkətlərinin məntiqi izahını verə biləcəkmi? İstər-istəməz Rusiya, ABŞ və Fransadan olan həmsədrlərə "bundan sonra nə" sualı ilə müraciət etməli oluruq".

# Çində güclü zəlzələ

Çinin Sıçuan əyalətində baş vermiş güclü zəlzələdə ölənlərin sayı 12-yə, yaralananların sayı 134 nəfərə çatıb. Bu barədə "The Paper" qəzeti xəbər verir.

Məlumata görə, xeyli ev tamamilə, yaxud qismən dağılmış, yollara və elektrik xətlərinə ciddi zərər dəymişdir. Xilasedicilər uçqunların altında qalan adamların axtarışını davam etdirirlər.

Rixter cədvəli ilə 6 bal gücündə birinci təkan srağagün gecə qeydə alınmışdır. Bundan sonra 5,3 bal gücündə ikinci zəlzələ baş vermiş, dünən isə 68 afterşok olmuşdur.

# Platini həbs olundu

UEFA-nın sabiq prezidenti Mişel Platini korrupsiyada şübhəli bilinərək həbs olunmuşdur. Bu barədə Böyük Britaniyanın "The Sun" qəzeti xəbər verir.

Məlumata görə, Platini Fransada tutulub saxlanmışdır. Bu cinayət işi 2022-ci ildə keçiriləcək mundialın ev sahibinin seçilməsi ilə əlaqələndirilir. O vaxt dünya çempionatını keçirmək hüququnu Qətər qazanmışdır.

2015-ci ilin oktyabrında FİFA-nın Etika komitəsinin arbitraj palatası Platinini üç ay müddətinə vəzifəsindən kənarlaşdırmış, dekabrda isə 8 il müddətinə diskvalifikasiya etmişdir. Sonralar cəza müddəti dörd ilədək azaldılmışdır.

# Bodrum hövzəsində qaçqın gəmisi batdı

Türkiyənin Muğla vilayətinin Bodrum rayonunda qeyri-leqal miqrantları daşıyan gəmi batmışdır. İlkin məlumata görə, 12 nəfər həlak olmuşdur. Bu barədə TRT telekanalı xəbər verir.

Göyərtəsində qaçqınların olduğu gəminin batması barədə məlumat alındıqdan sonra hadisə baş vermiş rayona xilasedicilər, iki kater, dalğıclar qrupu və helikopter göndərilmişdir. Axtarış-xilasetmə işləri nəticəsində 31 nəferi xilas etmək mümkün olmuşdur.


Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

## "BANK OF BAKU" ASC-nin səhmdarlarının nəzərinə

"Bank of Baku" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının ümumi yığıncağının 25 iyun 2019-cu il tarixdə saat 15:00-da keçiriləcək növbəti iclasının vaxtı dəyişdirilərək 27 iyun 2019-cu il tarixdə saat 15:00-a təyin edilir.

**Ünvan: Bankın Baş İdarəsi, Bakı AZ1069, Atatürk prospekti, 42.**
**Telefon: 447-00-55.**


## Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Dövlət Radiotezliklər İdarəsi xüsusi loqolu markaların, kitabların və digər tanıtım məhsullarının satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Radiotezliklər İdarəsinin Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə, 6-cı mərtəbə (əlaqələndirici şəxs: Qaryağdı Nağıyev; əlaqə telefonu: +99412 598-21-37, +99412 493-13-53) ünvanından ala bilərlər.

**İştirak haqqı: 700 (yeddi yüz) manat.**

**H/H: AZ78AZPO91015461200420100072**
**Bankın adı: "Azərpoçt" MMC PF1**
**Bankın VÖEN-i: 9900037711**
**Bankın kodu: 691011**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin qiymətinin 1 faizi həcmində bank təminatı (zərfin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Dövlət Sosial Müdafiə Fonduna borcun olub-olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulan digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 19 iyul 2019-cu il saat 17:00-a kimi, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 31 iyul 2019-cu il saat 17:00-a kimi Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə; 6-cı mərtəbə, Dövlət Radiotezliklər İdarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 01 avqust 2019-cu il saat 11:00-da Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Qobustan Rayon İcra Hakimiyyəti Qobustan şəhərində istismar müddəti başa çatmış 6 ikimərtəbəli 8 mənzilli binada yaşayan sakinlərin mənzil məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 48 mənzilli yaşayış binasının tikintisi ilə bağlı

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Qobustan şəhəri, H.Əliyev prospekti, 1 ünvanında yerləşən Qobustan Rayon İcra Hakimiyyətinin inzibati binasından (əlaqələndirici şəxs: Müslümov Fazil; əlaqə telefonu: 02024- 5-27-54) ala bilərlər.

**İştirak haqqı: 200 (iki yüz) manat**
**Qobustan YXO**
**VÖEN: 4800016471**
**H/H: AZ37AİİB32051019447200201172**
**Bankın adı: "Kapital Bank"ın Qobustan filialı**
**Bankın VÖEN-İ: 9900003611**
**Bankın kodu: 200725**
**M/H: AZ37NABZ: 01350100000000001944**
**SWIFT: BİKAİİBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetrilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *Dövlət Sosial Müdafiə Fonduna borcun olub-olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulan digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçirilməlidir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 20 iyul 2019-cu il saat 17:00-a kimi, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 29 iyul 2019-cu il saat 17:00-a kimi Qobustan rayonu, Qobustan şəhəri, H.Əliyev prospekti, 1, Qobustan Rayon İcra Hakimiyyətinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 31 iyul 2019-cu il saat 11:00-da Qobustan şəhəri, H.Əliyev prospekti, 1 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 25 aprel və 08 may 2019-cu il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən malların (işlərin, xidmətlərin) satın alınması məqsədilə dərc olunmuş elanlar üzrə keçirilən 17 LOT-dan ibarət açıq tenderdə **LOT 11: Generatorlara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması, LOT 14: Sutəmizləyici qurğulara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması və LOT 15: Su nasoslarına texniki xidmətin satın alınması** üçün təklif vermiş iddiaçıların sayı üçdən az olduğundan "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən bu LOT-lar üzrə tenderin davamından imtina edilmişdir.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Bakı şəhəri Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova nəvəsi
**SİYARƏNİN**
faciəli vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və şirkət rəhbərliyi tanınmış ictimai xadim, Azərbaycanın neft emalı sənayesinin təşkilatçılarından biri
**KAMİL ƏLİSOLTAN OĞLU AKİMOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhəri Səbail Rayon Məhkəməsinin kollektivi məhkəmənin sədri Ağamalı Qafarova əzizi
**SİYARƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Dövlət Universitetinin rektorluğu Alman-fransız dilləri kafedrasının müdiri Elmira Fərəcullayevaya anası
**MİNA XANIM BALAKİŞİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin kollektivi iş yoldaşları Anar İsmayılova atası
**ŞAHMAR İSMAYILOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kamil Məmmədov, Dadaş Asanov və Sadıq Murtuzayev
**KAMİL AKİMOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9052
Sifariş 1984
Qiyməti 40 qəpik